# Qasım bəy zakir

(Cild2)

Pdfləşdirən: kitablar sayti

http://www.kitablar.com

## KÖVHƏR AĞAYA

Ey Kövhəri-pakizeyi-dəryayi-lətafət, Vey kani-həqayiq! Övsafü sifatın məni-məddahə nə hacət, Aləm sana aşiq. Şəkkər ləbinə Kuhkən ər dursa müqabil, Şirini olur təlx. Ruyin görə, haşa ana ta ruzi-qiyamət, Əzrasını Vamiq. İyzəd ki, çəkib yer üzünə pərdeyi-ətləs, Bivəch deyil bu; Tutmuş sana, ey mehrü məhi-bürci-səadət, Gərduni süradiq, Ləli-ləbinə badeyi-gülgun desə hər kəs, Vur boynunu dərdəm, Qan eyləyənin qətlinə əhkami-şəriət, Yeksanü müvafiq. Fərq etməyə sübhün kişi ta sidq ilə kizbin, Vacib dögi səcdə, Vacibdir əyilsin sana hər dəm səri-taət, Nə kizb, nə sadiq? Ol günbədi-dəvvarə yetir kəlləmi, ey mah! Sal sayəni başə. Yəni elə bu bəndəyə inamü inayət, Bir türfə yaxalıq. Bəsdir bir işarə, dəxi küstaxlıq etmə, Ey Zakiri-təmma; Bir kimsəyə bir kimsə edən vəqt şəfəqqət Öz adına layiq.

## CAR MÜQƏDDİMƏSİ (Bababəy Şakirə)

Ey Baba bəy, bu humayun əskərin Seşənbədə sərmənzili Car oldu. Məşriq tərəfində tazə qələnin Qurulub xeymələr bərqərar oldu. Söz müxtəsər, gələn günün fərdası Qoyuldu sübhdən cəngin binası, Çulğadı aləmi şurü ğovğası, Sanasan qiyamət aşikar oldu. Miqlaçevski olub pişcənk, Canibi-meydanə sürdü bidirəng, Yeridi topxana, atıldı tüfəng, Göy üzü tutuldu, tirə-tar oldu, Görməyib ömründə bu çərxi-əxzər Bahadiri-dövran muna bərabər; Həqiqət göstərdi bir növ hünər, Rüstəmi-dastanə mundan ar oldu. Təhmurəs, Firidun, Fəramərz, Bürzü Cəm oluban yüz il çalalar gürzü, Belə aça bilməz kuhi-Əlbürzü, Naçalnikin karı özgə kar oldu. Neçə padişəhlər gəlib getmişdi, Vilayəti-Cardan kənar ötmüşdi; Bu fəthi bir dəfə Nadir etmişdi, Bir də sahibimdən yadigar oldu. Biz gəlincə olmuş idi qiylü qal, Urus tapmış idi şikəstü zəval. Eylə ki, yetişdi bu badi-şimal, Sanasan ki, ləzgi bir ğübar oldu. Var idi nifrətü etirazları, Ğüरurü sərkəşü sərəfrazları, Dağıstan dağının şahibazları Ərseyi-hümadə bir şikar oldu. Alıcı quş kimi özün toxudu, Çünki düşmən müqabildə çox idi; Sarlığına ümidimiz yox idi, Həq saxladı, yaradanı yar oldu. Ərusi-bəxt oldu ğüssədən azad, Çıxdı aralıqdan mayeyi-fəsad; İtaətə gəldi Şeyx ilə Həmzad, Şükr olsun allaha, tezbazar oldu. Hər kim baxa irəliyə, dalıya, Ölənədən özün salmaz balıya; Xain olan bu dövləti-aliyə Dağılıb hər yerdə tar-mar oldu. Soruşsan, kim getdi meydana əzəl, Getdi Rüstəm bəylə Mirzə Adgözəl; Pir babalar etdi bu növi cədəl, Cahıllar baxıban şərmsar oldu. O ki, bizim atlılardan bir para Vermiş idi özün püşti-divara, Nə dəğdəğə çəkdi, nə düşdü dara, Bir az yoldaşından intizar oldu. Əgər xəbər alsan Kərim əmini, Xəncər ilə biçir qoçaq zəmini; Xub tapıbdı kasıblığın çəmini, Car səfəri ona səbəbkar oldu. Çünki görübdülər dadın, ləzzətin, Ğeyri kar onlara görünür çətin; Hər kəs tapdı ata-baba sənətin, Əli Mərdan oğlu gəllədar oldu. Ərz edəndə baxa idin Şirinə, Yüz ildir babası gəlibdir dinə; Yanılış danışar düşəndə yenə, Bir kəs ki, binadən Vartazar oldu. Məəttələm cinli Səfər Əli bəg Hərçənd qıssadı, əmma pesərək; Bu oğlu İsmayıl nədəndi görək, Həmi cələb düşdü, həm zağar oldu. Dızaq xəlqindədir kisibin bolu, Bu işdə onların uzundu qolu; Gədə-güdə basdı meşəni, kolu, Kimi yoxa çıxdı, kimi var oldu. Mən özüm-də bir gün çıxdım cövlanə, Görmüyübsən, yolum düşdü

bu yanə; Bir tüfəngli ləzgi, mərdü mərdanə Tutulub, əlimdə giriftar oldu. Yer-yemiş babında misali-cənnət, Eşidibsən gendən özün də əlbət; Alma şahbalıtı yeyənə minnət, Hər çadıra girsən bir tağar oldu. Dımıq qoyun əti manəndi-şəkər, Basdırma, qovurma hər şamü səhər; Bala barmaq batırmayır gədələr İnək ayranından bimiqdar oldu. Sərasər əhvalı şərh etdim sizə, Ğənimətü yəğmə çıxıbdır dizə; Tarının bir lütfü budur ki bizə, Nə bir yağış yağdı, nə də qar oldu. Feyzə yetmək olmaz, olmasa irşad, Həmrahi-birahın dad əlindən, dad. Ümidvarəm ola bu səfər bir zad, Qumuq səfərimiz lap bikar oldu.

## ƏLİ BƏY FULADOVA

Nədən azürdəsən, ruhi-rəvanım, bisəbəb məndən? Bihəmdilləh ki, zahir olmayıb tərki-ədəb məndən. Süxənçinlər sözünə mərdi-dana etibar etməz, Sana təhqit lazımdır, desə bir zən-cələb məndən. Qaçar məndən Əlilər, xah oğlum, xah damadım, Sənin həm qaçmağın, cana, deyil hərgiz əcəb məndən! Mənəm dərvişi-nikəndkş kim, əyyami-ömrümdə Xuda agahdır, bir kimsəyə dəyməz təəb məndən. Səri-karı mənimlə kimsənin yox əhli-aləmdən, Məgər-rəncidədir nahəq iki alinəsəb məndən. Bu adətdir-ğənilər mülkü cah ənam edər xəlqə, Nə kari-büləcəbdir gör edər bunlar tələb məndən? Əziza, zərrəcə yox etibarım xiyşü əqvamə, Ərəbdən olmazam haşa, əgər olsa ərəb məndən. Görüb eybeyləmə bu şairin nəzmi-pərişanın, Pərişanxatirəm, umma kəlami-müntəxəb məndən. Şikəstə Zakirəm, xovf etməzəm mən şərri-ədadən, Nə qədri zud rənc olsa, keçər əhli-ğəzəb məndən.

## İBRAHİMBƏY AZƏRƏ

Ey kiramitər olan cismimdəki candan mana, Bəlkə əqlü hüşü fəhmü dinü iymandan mana. Bil, açan rüxsari-alındır tutulmuş könlümü, Şadlıq üz verməz ol gülbərgi-xəndandan mana. Babanam axır sənin, ey tifli-bimehrü vəfa, Gah, gahi əl yetir dövlətli babandan mana. Şükr-lillah, vardır bihədd arpa, buğdamız, Leyk bir qədri dügi hər ildə al xandan mana. Şiddəti-sərmadə bir kürk eyləsə bəzlü bərat, Pirlikdə kargər düşməz soyut çəndai mana. Dövlətindən alinin hökmü rəvaci-əsrdir, Ayda bir bağlam həna yaz gəlsin ol yandan mana. Payımı başdan çıxıb, ayağa tapşır, saxlasın, Sibi-şirin, şahbalud gər gəlsə Şirvandan, mana. Müxtəsər, bir neçə dəm gözlə məni sən bişü kəm, Ənqərib olmuş köç etmək mülki-dövrandan mana. Nəsli-İbrahim xan etmiş səni çün sərbülənd, Ğalib olmuş zövqü şövqün hər iki yandan mana. Azərim, xoşdur yəqin şamü səhər pərvanəvəş Atəşi-mehrinlə yanmaq yüz gülüstandan mana. Biz idik pərvərdeyi-nanü nəmək bir dövrdə, İndi bir əngüşt verməzlər nəməkdandan mana.*/ İBRAHİMBƏY AZƏRƏ /*Verməsiz, bais nədir, bu pirə müddətdir dügi, Muxlisi-dirinəyə, axır nə mürvətdir, dügi, Çakərə bəxş eylər ağa, rəsmü adətdir, dügi, Cismə asayiş verir,

çeşmə bəsirətdir dügi; Olmasa bir xanədə, ənduhü xiffətdir, dügi. Sənsən ancaq bir əmiri-pakzadə canişin Kim, onun məddahı məxluqi-səmavatü zəmin, Ədli bimanəndü həmta, bəzlü cudi biqərin, Baxma təhrikinə, mütləq, parə bədxahi-ləin, Desələr filaniyə vermək nə nisbətdir dügi. Güc verir çəltigə ildə mərdümi-Tərtərbasar, Xoş onun əhvalına hər kim ki, onda mülkü var; Döydürüb anbara payız doldurur tağar-tağar, Həm özü məsrəf qılır, həm Qələdə yük-yük satar. Netmişik, yarəb, bizim yerlərdə bidətdir dügi. Hiç kafər olmasın bu dəhrdə övqatsız, Yemək olmaz çörəyi, zinhar əppəkqatısız. Adəmin canın alır yoxluq sübut-isbatsız, Əmri-müşküldür dolanmaq gərçi malsız, atsız, Bənzəməz onlara hərgiz, özgə nemətdir dügi. Sərdtərdir, onda yox əsla yübusət maş tək, Kef gətirsin badəvəş, ya şireyi-xaşxaş tək, Dir həzm olsun və ya inki bədəndə daş tək, Hər məzacilə süluk eylər qohum-qardaş tək, Filməsəl pakizə həmdərdü xoş-ülfətdir dügi.*/ İşgənə kimdir, onun yanında basdırma nədir?! Ya bağırsaqdan dəxi büryan qavurma nədir?! Qəlyə içi dop-dolu kişmiş, ərik, xurma nədir? Qatı ondan olmasa, küftə nədir, dolma nədir?! Saxlasın tanrı hər afətdən ğənimətdir dügi. Şamə bir boşqab plov, bu şərt əndək yumuşaq, Cani-babadır xüsusən yağı olsa tazə yağ, Vay, bir gün olmaya, gəl gör nədir qaşü qabaq, Qoyma keçsin, qibləgaha, rüzigarım ol səyaq, Çox deyil mənzuri-mətləb, iki çetvertdir dügi. Əğniya, bil kim, plovsuz bir gecə şam eyləməz, Gəlməsə kəfkir səsi səminə, aram eyləməz, Çay, qəhvə adəmi, billah, nikunam eyləməz, Kari-xeyrə onsuz əsla kimsə iqdam eyləməz, Xəlq ara həm rövnəqi-bəzmi-müsibətdir dügi. Kibriya vermiş ona bir növ xoşrəftarlıq, Şüğlü kari daima ğəm əhlinə ğəmxarlıq, Hiç təndə eyləməz azürdəlik, bizarlıq, Eylə əmrazi-ğənidə həm təbibə yarlıt, Bəzi rəncurə özü tənha kifayətdir dügi. , Həmnişindir daima evdə əyal-ətfal ilə, Pak edər girdü ğubarın xublər ğərbal ilə, Gah-gahi bərq urar inci sifət, dəsmal ilə, "Qül-hüvvəllahü əhəd" söylər zəbani-hal ilə, Sufiyi-pəşminəpuşü saftiynədir dügi. Şilə, şorba xəstəyə məsrəf düşər şamü səhər, Ol səbəbdən ki, ona yağlı plov eylər zərər, Sağ üçün hər siləsi bir silə altunə dəyər. Xah pirü, gah bürna, xah övrət, xah ər, Müflisü bayü ğəni, hər nəfsə hacətdir dügi. Düşsə hər bəzmə güzarı, şəm tək pürnur edər, Xaneyi-eyşü nişatı vəslilə məmur edər, Dövr cövrindən mükəddər xatiri məsrur edər, Leşkəri-cui çıxardıb mülki-dildən dur edər, Bir dilavər pəhləvanü əhli-cürətdir dügi. Pirlikdə nanü həlvayi-doşabı neylirəm, Otuz ikidən biri yoxdur, kəbabı neylirəm, Bəsdi bir bişmiş, iyirmi dörd əzabı neylirəm, Mədəyə hər şey ki, salsa inqilabı, neylirəm, Qoy qazanı üstə, övrət, biməzərrətdir dügi. Yoxdur aləmlə belə bir qatili-səfravü xun, Xilti-sövdanı qılır bilmərrə məğlubü zəbun, Çareyi-əmrazi-bəlğəmdə təbibə rəhnümun, Ruzi-şəb təfrihi-qəlbü mərhəmi-rəşi-dərun, Nafeyi-suzi-ətəş, dəfi-hərarətdir dügi. Adəmi cənnətdən ixrac etdi gəndüm danəsi, Arpanın kimdir cahanda valehü divanəsi, Olmasın ərzən yatağı heç kimin kaşanəsi! Gərçi məmlüvdür sərasər həqq mehmanxanəsi, Cümlə ətamə vəlakin ziybü ziynətdir dügi. Əhmədi-Muxtar, Xətmi-Ənbiya səlli-cəmal, Şafeyi-ruzi-qiyamət, mədəni-fəzlü kəmal, Eylədi həft asimanə seyr, dərdəm, çün xəyal, Ondan əfzun qədrdə olsaydı bir şey, Zülcəlal Bəs neçün ol sərvəri-nasə ziyafətdir dügi?! Dəstinə alma Müqimin məhz biyca nüsxəsin, Əkbər oğlu Hacının bihudə əşya nüsxəsin; Özlərin dana sanır, bilməz müdava nüsxəsin, Görmüşəm mən güllühüm haziq ətibba nüsxəsin, Eyləmişlər təcrübə, məqruni-sihhətdir dügi. Qoyma qalsın Zakiri dami-bəladə,

qayğuda, Nə rəva piranəsərlikdə ki, xuni-dil uda; Yağı vursa yeydi, bir karvan qalınca busquda, Verə bildikcə verib hindarxıdda, Hacılluda Qadiri-biçun deyirlər kim, qiyamətdir dügi.

## KNYAZ İLİKOYA

Əla, ey afitabi-bürci-müştaqi-vəfa knyaz! Əla, ey dürri-bihəmtayi-dəryayi-səxa knyaz! Məni hifz eylədin asibi-üdvandan, görüm, yarəb, Səni hifz eyləsin asibi-dövrandan xuda, knyaz! Mənim bu müşkülümü sən ki, qıldın lütf üzilə həll, Səni heç müşkül işdə qoymasın müşkülgüşa, knyaz! Səni qeydi-ğəmi-afaqdən qılsın rəha tari, O iki novcəvanı qeyddən qıldın rəha, knyaz! Bu piri-natəvanə ömr verdin tazədən əlhəq, Nə qədri var ömrüm ömrünə qıllam dua, knyaz! Mana tutdun bir iş ta var dünya qalacaq baqi, Eşidənlər hamı kim, deyəcəklər, mərhəba, knyaz! Qərabağ içrə bu karin salıbdır nur gün nisbət, Həmişə bəxtin olsun gün kimi, ey məhliqa knyaz! Kişi tutsun gərək bir iş ki, qalsın yadi-xeyr ondan, Bu dünya fanidir, heç kimsəyə qılmaz vəfa, knyaz! Səni heç nakəsü namərdə möhtac etməsin tari, Şikəstə Zakirəm, zikrim budur sübhü məsa, knyaz!

## RUS VƏLİƏHDİNƏ (Qafqaz çanişininə)

Ey vəliəhd, sana lütfi-xuda yar olsun, Dəstgirin əbədən qadiri-muxtar olsun! Gülşəni-dəhrdə sərsəbz nihali-bəxtin, Ey sərəfrazi-cahan, ta ki, cahan var, olsun! Çeşmi-bəddən səni hifz eyləsin oy həyyü ğəfur, Baxsa hər kim, sana kəc, dərdə kiriftar olsun! Sayəbani-sipəhin ətləsi-çərxi-əxzər, Pasiban dərgəhinə əncümü səyyar olsun! Cami-eyşin meyi-gülrəng ilə daim ləbriz, Qədəhi-bəzmi-nəşatın dəxi sərşar olsun! Əmrinə bəndeyi-fərman Buxara, Xarəzm, Hökmünə Çinü Xəta tabeyi-iqrar olsun! Düşsə hər cayə yolun şamü səhər fəthü zəfər, Ol biri pişrovun, biri qəfadar olsun! Dustun xoşdilü xürsənd ola, bədxahlərin Bidi-Məcnun kimi həmvarə nigunsar olsun! Pərtövi-mehri-rüxun etsin üfüqdən tale. Çeşmi-bədbini-ədu şəbpərəvəş tar olsun! Nə əcəb, sümmi-səməndi-sipəhinlə yeksər Kühi-Əlburz biyaban kimi həmvar olsun! Çoxdur ümmid bu dəm qovmi-Çeçen, əhli-Avar Dağılıb hər tərəf avarəvü idbar olsun! Şahbazi-dəri-dövlət nə bilir ovci-həziz, Götürər çənginə yüz tayiri-gühsar olsun! Eylədi xuldi-bərin Tiflisi feyzi-nəzərin, Bas Qarabağə qədəm, məskəni-gülzar olsun! Ğələt etdim bu sözü, hanı o sər bizlərdə Kim, vəliəhdi-şəhə layiqi-iysar olsun! Yoxdu bu əsrdə ol şairi-pürzur, əfsus, Deyə bir mədh ki, şənində səzavar olsun! Şairə eyb deyil, zabitədir təbi-səlim, Dərk edər anı ki, güncayişi-göftar olsun! Baisi-fəxri-vücudat ola bir paknicad, Vəsfü övsafi-kəmalatı nə miqdar olsun! Nəzmi-mən,-pişi-Süleymanə necə muri-həqir Gətdi ta payi-mələx, - hacəti izhar olsun. Pirəzən dəstinə almış kələfi-rismani Yusifi-Misrə həmana ki, xiridar olsun.

# MİRZƏ MEHDİYƏ

Ey Mehdiyi-zaman, şairi-dövran, Adam olan gərək danışa məqul;
Həcv, hədyan ilə sana nə layiq Uyezdni Qazini eyləmək məlul! Qazi bir molladır təyyubü tahir, Onunla ədavət eyləmə zahir; Nəzmi-təbin ola dürrü cəvahir, Xəlq içində qiymətidir qara pul! Söz deyən gözləyə gərək əndazə, Nəinki əqlinə gələni yazə; haçan mən vermişəm sana icazə: Qulağını qırpıb yetənə soxul! Məgər yaddan çıxıb əyyami-mazi, Tarxanov zamanı çakəri-qazi Olmasaydı gəlməyinə ta razi, Eyləyə bilməzdin hücrəyə düxul. Kəfş kəndə otururdun baədəb, Danışa bilməzdin bivəchü səbəb; Çürət bəhəm eyləyibsən, nə əcəb Gözləməzsən təriq, saxlamazsan yol? Etibar eləmə dövri-fələyə, Əbəs yerə özün salma kələyə; Quş bağlanıb, deyən, beş gün tüləyə, Pərvaz eyləməsin turac, qırqavul! Gədə, saf azıbdır sənin əməlin, Axırındı, bilmən, yoxsa əvvəlin; Talıb kimi hərdəm tutanda dəlin Danışırsan hədyan, söylürsən füzul. Baxma İbrahimə, olma sərsəri, Onun heç özündən yoxdu xəbəri; Qazidən kənara durandan bəri Qaçar ondan təmam əyalü oğul. Ənqəribdir bu gün, sabah gəlir xan, Qaçma bir tərəfə,……. var dayan, Tövsəni-nəzminin başın çək, oğlan, Enişə-yoxuşa çapma bi-üsul! Mən gəzmişəm Gəncə, Şəki, Şirvanı, Bizim tək sirr açan cəmaət hanı? Bəd əməldə görsə biri mollanı, Üstünə örtəllər ellik ilə çul. Qaxarsan başına gahi çırağı, Gah deyirsən işə tutar qonağı; Ey uşaq, bilməzsən sən bu sayağı, Zina deyil əgər övrət olsa dul. Nə çəkirsən onu arana, dağa, Gündə bir yazarsan hədə, qadağa; Tərəfgirlik eləməyib mütləğa, Rüşvət almayıbdır ömründə bir yol. Müridi-xas idin Qaziyə daim, Hekayətin həmvar, özün mülayim; Üsulü təriqin tutmuşdun qayim, Sana kim toxundu, elədin nükul? Nə desən yaraşır Əbdülə, mana, Biz də əvəzini yazarıq sana, Nəhayət küfrdür söz deməк ona, Bir iş tut ki, tarı eyləsin qəbul. Müştəridir göftüguyə həmişə, Tövri-təriqəti salmağa işə Mu qədəri edən deyil əndişə, Gəlsə üləmayi-Misrü İstambul. Bir stəkan çay nuş edər nəharə, İki cəngə çilov axşam iftarə; Əlhəmdü-lillahə deyil, biçarə Özgə mollalar tək təmmaü əkul. Fındığa yetirib gərçi tiryakı, Yenə sərindədir fəhmü idrakı; Hər yetən novçədən eyləməz baki, Pişləngə salacaq səni, hazır ol! Sarcallını qoyma eyləsin fərar, Yüz illik əmlakı tökülüb qalar; Gedən tək olara qızılbaş yazar On tümən məvacib, oda lavüsul. Boran çoxalanda gəzər yalavac, Kisələri xali, əyalları ac; Kürəyə kəsilib sən görən ağac, Qalmayıb kimsədə bir kəndi-tüyul. Məbada olalar qızılbaşa ram, Yığılıb gəlsinlər Qələyə təmam. O dövlətdən əl çəkibdir xasü am, Necə ki, təbibdən mərdümi-məslul. hər kim ki, istəyə əbədi çörək, Dövləti-aliyə yapışsın gərək; Canü dildən qulluq eylə bir əndək,. Hörmətə, izzətə, nemətə cumul. Büxlü həsəd olub bu xəlqə adət, Həddən aşıb aravurmaq, şərarət; Bilirəm, bir səfhə etməz kifayət, Nə lazımdı dəxi verəm nəzmə tul.. Bilirəm işini mən o viranın, Mədənidir təqəllübün, yalanın; Bəyi, xanı, şahı mülki-İranın Çoxdan eyləyiblər ədldən üdul. Saluban gərdənə tövqi-iradət, Üz tutsun dərgahə bivəhmü vəhşət;, Cümlə ğəmin bədtəridir şəmatət, Vardır bu babdə hədisi-mədlul. Qorxuram açıla bir özgə kələk, Gördünmü ki, nə saç qaldı, nə ələk; Az çəkər, sizlərə, Xındırıstan tək, Buyrula hər yandan çapğun, çapavul.

## MEHDİ BƏYƏ

Bəyi görmək mana deyil müyəssər, Mənim əvəzimdə, filani, sən gör. De kim, bu nə işdir, ey mərdi-məqul, O əhdi, iqrarı yalanı sən gör. Xəlq içində özün zahid göstərən, Fasiqə, facirə nəsihət verən. Naxunundan ğeyri iki ... görən Zöhrəyə müştəri olanı sən gör. Həq bilir ki, ustadıdır bəd karın, ………………zürrətin namusun, arın. Əgər xan bağına düşsə güzarın, Məryəmi……… talanı
sən gör. Kəmmali-kamiləm deyib özünə, Bir əbləhi inandırıb sözünə. O xəlvət xanədə Fatma gözünə Səhər ertə milçə salanı sən gör. İldə birin doğub, örtüb, çulluyan, ………….yeksər-zolluyan, Hər atı görəndə…….. tulluyan, Bir özü mil, qaşqa qulanı sən gör. Rəviyyəşinas həm iş bilən olmuş, Xanımlara, xatınlara tən olmuş, Abırlı, həyalı mağıl zən olmuş, Ərinin saqqalın yolanı sən gör. Tərk edib vacibi fərzi-sünnəti, Almayıb pəşminə heç məzəmməti, Tanrı bilir, bu işlədən büdəti Nə kürd eylər, nə də kolani sən gör. Uçoğlanlı Səfər getsin dərinə, Mən dolanım qoç iyidih sərinə; Yolun düşsə Şəkərbəyli yerinə, Həzərat saldığı bulanı sən gör. Əmisinə eyləməyə nəsihət, Qasimi incitmək sana nə nisbət. Dövlətlidən dövlət, kordan bəsirət, Çalar hər tərəfi ilanı sən gör. Xan qızının bizə lütfü, nəzəri, Sanırdı özünün canı, cikəri. Bu yaz bəyə münsif olandan bəri Özümü saldırım bəlanı sən gör.

## ƏTA XANA

Mirzə Mehdi, bizim bəndəxanənin Keçəsi dağılıb, keçə gərəkdir. On dörd qalıb olsa kifayət eylər Əgər xəbər alsan "neçə gərəkdir?" Əta xandan əta deyil ki, uzaq, Əmma bizə düşməyibdir ittifaq. Alinəsəb adam yüz olsa uşaq, Yaxşını, yamanı seçə gərəkdir. Nisfin Qaraağacı, nisfin Xəsili Versələr bilmərrə dəva kəsili. Törəmədi qoyunların əsili İldə iki yol gələ qoça gərəkdir. İyirmi istildən salına möhkəm, Yüz il yağış yağsa verməyə bir nəm, Elə mərğub ola kim, görən adəm Bəkrəsin içinə .... gərəkdir. 0 üzü, bu üzü sərasər həmvar, Təpikçisi qoçaq, həllacı pərkar; Ev sahibi ətdən, aşdan nə ki, var, Tökə onlar yeyə, içə gərəkdir. Səmərqəndi kağız kimi ağ ola, Güzəmi pərqu tək yumuşaq ola, Tikiləndə hazır bir otaq ola, Şöhrəti fələkdən keçə gərəkdir. Külfət çox olanda dərdisər artar, Görərsən, hər biri bir yana dartar; Qışda oturmağa, həqdi, damı var, Sabah yaz olanda köçə gərəkdir. Övrəti ölən tək tez almaqda zən Əmin Salif bəydən keçərmişəm mən. Üç-dörd oğul qayırmışam təzədən, Ölüncə kişiyə beçə gərəkdir. Keçən ildə çox mufsidü bədbina Abuğun nəqlini eylədi bərpa; Şükür həqqə, bu söz olmadı bərca, El xayini çıxa puça gərəkdir. Özü düşər, qaza hər kim ki, qarı, Bəlalərə eylər müsəllət tarı. Mən belə bilməzəm, neçin aqarı, Hər kəs öz əkdiyin biçə gərəkdir. Hamıdan ziyadə zülm oldu mənə, Dövran bər-əksinə dolandı yenə; Vəliyul-nəəmi ölən kimsənə Ruhu bədənindən uça gərəkdir!*/

SALARƏ /*Mirzə Hüseyn, bir kəs ola vərşikəst, Çox adamlar alır ayaq üstünə. O ki, Kərbəlayi bu binəvanın Çökübdü diz özgə səyaq üstünə. Xındırıstan beş-on evdi kəsbkar, Yerli tayifəsi ağaçdan qorxar; Bəyin tatü türkü; təmam nə ki, var Çəkər fəqirlərin çomaq, üstünə. Fəthü nüsrət deyil müşəxxəs hələ, İt uşağı qoyub börkünü dələ; Hərə bir dəyənək götürüb ələ, Sanasan sağ gəlir naçaq üstünə. Bəy hər nə danışsa, danışır döşdən, Koroğlu tək beşdən, ondan, on beşdən; Xatircəm olubdu küllühüm işdən, Gəlib neçə gündü dəmağ üstünə. Dağın o yüzündə bir kəndi Rəbən, Qaqarza, Üçoğlan mülki-müstəhsən. Bir ovuc toprağə göz tikmişəm mən Necə ki, quş qonar budağ üstüna. Bu dünyanın malı dünyada qali, Dövrü zaman deyil fitnədən xali. Həştadə yetəndə kişinin sali Gərək qoya dodaq-dodaq üstünə. Azar duşüb camışıma, malıma, Qan-yaş tökər görən kəslər halıma; Fələk ğəm yükünü yığıb dalıma, Bir zad qalmayıb ki, qoyaq üstünə. Moruğdur hər yerdə dəvası dərdin, Daruyi-şəfası ruxsari-zərdin, Müşkülün həll olmaz, əgər namərdin Tutasan sübhətən çiraq, ustünə. Böyüklük yetənin ağzına gendi, Tut damənin, o ki qədir biləndi, Deyirlər Nəzrağa qövrə yetəndi, Düşmüşəm tazədən sorağ üstünə.*/

## BAHARLI MİRZƏ İSMAİLƏ

Eşitdim ki, tazəliklə satıbsan Kəndini bir çuval gəndümə, Mirza! Bu misrəi özün yaxşı bilirsən, Sənin…. mənim zəndimə, Mirza! O sana düşməndir aləm-aşikar, Hələ indi bu dəm ehtiyatı var; Bir əndək ki, başı açıldı, salar Yenə səni yandım-yandıma, Mirza! Əlin çıxacaqdı dava-dərmandan, Müntəfe olursan, amma nə çəndan. Həsrət aparısan Xındırıstandan Yolun hər düşəndə kəndimə, Mirza! Eyib deyil olmaq kişiyə kasıb, Qulluğun var, buyur bizə münasib; Əmanət-əmanət, oğlan, qar basıb, Bayramxan ocağın söndümə, Mirza! Nə tez barışırsan, bildir dalaşdın? Hər nə ki, eybi var aləmə aşdın. Noxtanı başından sıyırıb qaşdın, Yaxşı düşmüş idin fəndimə, Mirza! Rişxənd eyləyib güldüklərini, Çay içib ağzını sildiklərini, Bəy babana vermə bildiklərini, Demənəm ki, bir zad çəndimə, Mirza! Keçən ildə hərçənd olub qiylü qal, Öhdəsinə götməz, gözüm, əhli-hal; Yolundu, yolundu .... saqqal, Oğlanı hüccətə mindimə, Mirza! Sözbazlıqda çünki yədi-beyzan var, Hər kim olsa səni axtarıb tapar; Yeyərsən, içərsən, qorxma, a yassar, Qayım dur, özünü sındıma, Mirza! Məsəli-məşhurdur eldə, obada, Sən özün də eşidibsən ziyada: Mərd ətəyin tutan yetər murada, Namərdə başını endimə, Mirza! Kəlamımdır dürüst, özüm hesabı, Müşküldür bu əmrə gətirmək tabı; Mən biliräm-yazacaqsan cavabı, Xeyrin deyil, məni dindimə, Mirza!

## BƏYLƏR BƏYƏ

Bəylər, nə layiqdi Xan qulluğuna Bir kəs atlı gedə, piyadə gələ? İldə bir yol düşür mənim güzarım, Vay onun halına ziyadə gələ. Böyüyün dərində lazımdır dərban, Axşamdən ola bəndeyi-fərman; Təmənnasız gələn olur peşiman, Gələ gör bir adam muradə gələ! Oğurluğa əcəb olubsuz mötad, Həmrahi-birahın dad əlindən, dad! Gələndə şad gələr, gedəndə naşad, Hər kimsə ki, sizin bərbadə gələ. Gəlməyən adama deyirsiz: gəlin! Müşküldür qayıtmaq ayağı yalın. Mən yenə qıvrağam, Adıgözəlin Gərək dalısınca ərradə gələ. Məsəli-məşhurdu: "quş dənə gələr", Sizdə bir nəf yox səvayi-zərər, Gəlməz o qapıya heç kimsə məgər, Horadiz, Quyucaq fəryadə gələ. Mundan sonra girən xanın evinə, Gərək başmaqların soxa cibinə. Ya keçirə saf otağın dibinə, Nə isə mühəyya, amadə gələ. Lazımdır tərəddud xeyirdə, şərdə,. Ədalət üzünə çəkibsiz pərdə, Bir təziyə olsa, xudanəkərdə, Gümanım yoxdur ki, molla də gələ. Bir adam təyin et asitanəyə, Yaxşını, yamanı görcək tanıya; Nə eşiyə, nə də qəhvəxanəyə, Qoymaya hər yetən ... dadə gələ.

## BAYATILAR

Bir Tərtər, bir İncə var, Çamçapar bürünc ovar Aşiqin gizli dərdi Dağların birincə var. Bağında birgəzən var, Bürünmüş bürqə zənvar. Xəyalım dağınıqdır, Könlümdə bir gəzən var. Aşiq o yağiləndir, Piltə o yağ iləndir. Vəhdəhu la şərikin Lütfü oyağ iləndir. Aşiqəm gör dügünü, Ay doğdu, gördü günü. Cənnətdə görməz aşiq Qoynunda gördügünü. Aşiq Minayə dəgər, Xalın Minayə dəgər, İl var bir günə dəgməz, Gün var min ayə dəgər. Gəldi bir baqi süvar, Bağban, sən baği suvar. Gül dəftərin bükübdür, Bülbülün baqisi var. Gəldi bir yaxşı süvar, Gir bağa yaxşı suvar: Aləmin malü mülkü, Aşiqin Yaxşısı var. orğanında birə var, İki qumuq, bir avar. Rüstəmi-zal olasan, Fələk səni bir ovar. Gətirdin abugərdən, Ver mürğə a bekar, dən, Bilmədin yar qədrini, Sınasan, a bu gərdən. Aşiq hərayə çatar, Oxur hər ayə çatar. Can çıxdı, canan gəlməz, haray harayə çatar? Dur atlan, yanına var, Oxlanan yanın ovar, Dindirərəm dinməzsən, Arada yenə nə var? Gözüm, səndə səda var, İskəndərvar səda var. Deyirlər canan gəlir, Bir beləcə səda var. Şuşa var, Dağdana var, Mürğ üçün dağ dən ovar, Göz yaşım selə-döndü Endidi dağda nə var.*/ /*Xərab olsun görüm belə zəmanə, Qalmadı qəllədən bu il nişanə, Mələx üz qoyubdur Xındırıstanə, Bu dağılmış əcəb oynaq olubdur. Tərtərbasan az əgirdi adətdə, Çəltigə verirdi gücü qayətdə, Viran olan bizik bu vilayətdə, Bir Üçoğlan, bir də Tanyaq olubdur. Əllidən ki, keçdi bir əndək kişi Övrət ilə olmaz alış-verişi. Mən ki, təmam eyləmişəm yetmişi, Onu bilən yoxdur haçaq olubdur. Məndən betər əldən düşüb Vəli bəg, Yalamışdı üzün bir müddət köpək, Yığışdırdı olan-qalanı gəlcək, Deyirlər ki, genə qısraq olubdur. Zakirəm almışam bir dərdbiləni, Dəyirmanə özü aparır dəni, Muttəsil bişirir könlüm sevəni, Öz yaşı özünə qovşaq olubdur.*/ /*Qəmər şəqqə urmuş tel

arasından, Ziya salmış zənəxdanın üstünə. Müjganın sayəsi qanlar yağdırır İki ləli-bədəxşanın üstünə. Çəkdi zülfün kəməndi çərxi damə, Qiyamət göstərir sübh ilə şamə, Gördü ləbin yetdi yəhyil-izamə, Xızır gəldi Məsihanın üstünə. Dütası müsəlsəl ənbərin geysu, Çeşmi sərxoş baxar misali-ahu. Ğəmzeyi-cəlladi, mərkəbi-hindu Çəkər zülfi-pərişanın üstünə. Çəkdi ləşkər gəldi ğəmzən sərdarı, Bildi ki, bikəsdir, yoxdu ğəmxarı. hicran ələmdarı, ğüssə çaparı, Gəldi Zakir binəvanın üstünə.*/ /*Bir kərrə cəmalın ovsafın etmək, Yüz şəmsü qəmərin ağzına gendir. Taqi-əbrulərin vəsfin söyləmək Mehrabü minbərin ağzına gendir. Başına döndüyüm, ey küli-rüxsar, Yerişin sərxoşdur, gülüşün xumar. O şirinlik sənin ləblərində var, Qəndi-mükərrərin ağzına gendir. Bilmək olmaz sənin sirri-dəhanın, Qurbanı mən olam sən növcəvanın, Elə ki, zülf qucar incə miyanın, O zərrin kəmərin ağzına gendir. Pərvanə, laf edib nədir danışmaq, Sövdayi-şəm ilə həddindən aşmaq? Gecə-gündüz Zakir kimi alışmaq, Külli-səməndərin ağzına gendir.*/ /*Aman fələk, aman mürvət günüdü Ayrı düşdüm nazlı yardan, ay mədəd Mən bülbülün xəzan oldu baharı Gül də qaldı arzumandan ay mədəd. Ağ üzünə siyah zülfü düzeydim, Əl uzadıb yaxa bəndin üzeydim, hayıf ola, bir qol-boyun gəzeydim Dolanaydım sağü soldan, ay mədəd. Tuti kimi bir doymadım dilindən, Şəkkər əmib bir quçmadım belindən, Zakir deyər çərxi-fələk əlindən Qərib eldə ağlaram qan, ay mədəd.*/ *Vədə verib sən ha gəlləm demişdin, Gözüm qaldı intizarda gəlmədin. Sənsiz mənim giryə oldu munisim, Məni qoydun intizar da gəlmədin. Əydi qəddim firqətin cah-cəlalı, Necə qaşın xəm eyləmiş hilalı, Saldı məni damə zülfün xəyalı, Mənsur kimi qaldım darda gəlmədin. Mən elə Zakirəm ey vədəxilaf, Nizeyi-ahımdan çərx oldu şikaf, Belə olmaz a bimürvət, biinsaf, Getdi əldən ixtiyar da gəlmədin.*/ /*Ölüncə mən səndən əl çəkməz idim Bu ayrılıq mana qəzadən oldu. Əğyar tə nəsindən, möhnət ğəmindən Sən demə ki, cövrü cəfadan oldu. Gözəllər şahı mən sana bəndəyəm, Salma nəzərindən bir əfkəndəyəm, Həsrəti-zülfündən qara gündəyəm, Bu sitəmlər mana səbadən oldu. Zakirəm yəqinən candan keçmişəm, Meylər kimi əyağlara düşmüşəm, Bəlalər çəkibən qanlar içmişəm, Sən kimi gərdəni minadən oldu.

## ƏLAVƏLƏR

Sərim ol payə fəda kim, şəhi-xubanə gedər, Sədqə can ol gözə kim, baxmağa cananə gedər. Qətreyi-dürri-ərəq çahi-zənəxdanında, Kuyiya Yusifi-Misri çəhi-zindanə gedər. Küfri-çeşmi çərisi çeşmimə səf-səf görünur, Belə məlum genə fəthi-müsəlmanə gedər. Çürmi-aləm nədir, ey şux, xədəngi-ğəmzən Qətli-am etmək üçün hər biri bir yanə gedər. Xətti-növxizmidir dövri-ləbində, yoxsa Ləşkəri-Hind tutub Rumi Bədəxşanə gedər. Daneyi-xal həvasilə uçar dil mürğü, Dami-geysular alıb çevrəsin əfsanə gedər. İstədim yarə keçən dəmdə deyim dərdi-dilim, Gördüm olmaz, mey içib, sərxoşü məstanə gedər. Zakira, cövrü sitəmdən qalanı canımızın, Az çəkər, tezlik ilə afəti-hicranə gedər.*/ /*Belə

cəlladi-pərivəş, belə canan olumu, Bu necə ruhi-mücəssəmdi belə can olumu, Qabi-qövseyn məqamında bu peykan olumu, Küfr zülfüni sevən tabeyi-iyman olumu, Ki, desəm cami-həqiqət ləbinə, qan olumu? Bəşər əhlində xudaya, nə məlahətdir bu, Ayeyi-fəthi-zəfərdən bir əlamətdir bu. Allah-allah nə təmaşadi, nə afətdir bu, Necə qəddü necə mina, nə qiymətdir bu, Belə ğəmzə, belə cadu, belə müjgan olumu? Hanı bir sən kimi xunxar ola mərrix sipah, Həsrəti-mehr yüzindən şəbi-səyyardi mah, Müştəri bəxtü Ütaridnəsəbü Zöhrənigah Cümlə "əhsəntü!" deyəllər, belə insan olumu? Ey qərari-dilü canü və həm arami-könül, Yenə çak oldu ləbin şövqi ilə ğönçeyi-gül, Sındı meyxanədə tab eyləməyib... Saqiyi-cami-ələstə dedim: ey layəqil, İki badami-siyah göz belə məstan olumu. Nari-nəmrüd güli-arizinin gümrahi, Xülqi rövşən eləyən bəzmi-xəlilüllahi, Haşimi xalı demə, cıqqeyi-şahənşahi, Zakirin canın alan zülmü sitəm agahi, Bir belə ruhi-rəvan, afəti-dövran olumu?

## HACI BÖYÜK BƏYƏ

Tüf sənin yüzünə, ey çərxi-müanidpərvər, Ərzəlü kəcrəvişü nakəsü namərdsiyər, Mötəbərdir bizə yüz sən dənidən fahişələr, Lənət etsin sana ol xaliqi-həyyü davər, Mübtəzil eyləmisən gör neçə min peyğəmbər. Ovliyadən kimi dövründə sən etdin dilşad, Şiri-həq qətlinə bərçid elədin min ifsad, Ali-Süfyanə müavin olub etdin imdad, Şamı təmir eləyib, Yəsribi qıldın bərbad, Kərbəla qissəsini eylədin aləmdə səmər. Padşahani-sələfdən kimə verdin aram, Nistü nabud elədin-qalmadı Huşəng ilə Sam; Fürsət olmadı ki, Cəmşid içə bir şövq ilə cam, Əklü şürb oldu o biçarə Kəyumərsə həram, Getdi zülmatə sənin məkrin ilə İskəndər. Dövri-vajuninə xatircəm olub hər əclaf Arsız öz həqq yolundan itirir zeyyini saf, Geçə hədyan danışıb, gündüz edir lafü kəzaf, Qəlbi-napakdə hərgiz ola bilməz insaf, Sahibi-minbərü mehrab olu………. kimi xər, Mən keçən zülmləri birbəbir etsəm inşa, Bəli, əlbəttə, əqəllən olu yüz min tüğra, Keçən əyyam keçibdir,-deyə, yazmaq bica, Şimdi bu Şişə ara yaxşı salıbsan ğövğa, Bir-birini qıracaqlar nücəba az çəkər.*/ Pərilər məskəni bu Şişəni divə layiq Nə rəva eylədin, ey sənətə təşnə, şaiq, Tutalım qurbağalar divə olublar aşiq, Daim üryan gəzibən tanımayan arxalıq, Məsnədi-Mehdiyə calis olub övladi-Ğəzər. Namüradə nə səzadır bu qədər izzü cəmal, Əlliyə sinni yetib, zərrəcə yox onda kəmal, Surəti-bərzəxi təşbihi-himari-Dəccal, Bu nə təzvicdi sən eyləmisən ey həmmal, Mehri-rəxşəndə zühurunda dura şəbpərələr? Bir deyən yoxdu Murada, ürəyim oldu dü nim, Ey səfihü əzəlü əhməqü mərdudü ləim, Ruhra, söhbəti-nacins əzab əst əlim, Sən de həmsirrinə, qurbanın olum, Mirzə Müqim, "Bu tənakühdən a biçarə, sana varmı səmər?" De, qulaq asma mana, yaxşı qılıbsan tədbir, Rişxənd eyləyəçək atlıya piyadeyi-pir, Səni gördükdə cəmalinə kim olmazdı əsir, Yaxşı yığdın evinə aqilü nadanü əmir, Necə ki, günbəd ara cəm olur faxtələr. İstəyən dəmdə xudavəndi-qədimü biçun Hər kəsin eyləyə iqbalını aləmdə zəbun; Belə əfalə onu eyləyəcək rahnümun, Özün öz dəstin ilə yıxdın evini, məlun, Yeri, kir külxənə, tök başına kül şamü səhər. Qələt etdim, hanı ol səndə, bu böhtan oldu, Axırı şer

demək olmadı, hədyan oldu, Şimdi ki, bu əməlin aləmə dastan oldu, Demə xanəm dağılıb qalmadı, talan oldu, Ehtiyat eylə, Əmirzadə səni kəmsiklər. Nurunun nur üzündə var idi görmədi, sən Eyləyən işləri ey ez-özünü tanıməyən, Kari-dünyayə bir az ismət ilən çəkdi ihən, Qıldı üqba səfərin axırı bu xülqi-Həsən, Torpağı sanı sana lənət oxur cinnü bəşər. O nə övrad oxumaq idi, nə hikmət, nə üsul, O nə izhari-dəyanət eləmək naməqbul, Hiç qəsd ilə tədarük görən eylərmi üdul? Hərəmi-beyti-xudayə girə bilməz məful, O səbəb həcci-nisa tərkinə hekm etdi Ömər. Məkkədir mömin olan kimsənənin meraci, Zairi-xətmi-rüsul olmayan olmaz naci, Şahü bürnavü gədadır bu dərin möhtaci, Məkkəyə sən də gedib yaxşı qayıtdın Haci, Ğənim olsun sana Miyqatü Mina, Səngi-həcər, Görməyib bir belə iş hiç kəs allaha pənah, Eyləyə ömri-əzizin kişi dünyadə təbah, Malü dövlət səni, əlqissə, edibdir gümrah, Türk ara yaxşı məsəldir deyilibdir vallah: "Köpəyin qarnı tox olsa gecə ulduza hürər". Şükr-lillah, ürəfa sinfi olur azadə, Ehtiyacı ola bilməz sən edən imdadə, Bir binadır ki, qoyan qoydu bizim bərbadə, Bəli, yaxşı buyurub Arifi-heydərzadə: "Layiqi-möhreyi-xər olmayan aldı gövhər". Başına at təpib, içməmisən sən ki şərab, Çoxdu səndə, tutalım, simü zərü mülkü dəvab, Əqlin ər var isə yığ başına, ey xanəxərab, Evlənirsən, barı get anqırıban tayını tap, Nəsli-qatırçıya şahzadələr olmaz həmsər.*/

## BABA BƏYİN VƏFATINA

Diriğa, getdi bir-bir dərdbilənlər, fərd mən qaldım, Cahanda xatiri ğəmgin, dili pürdərd mən qaldım. Ənisü mehribanım Mehribanda vasili-rəhmət Olub, dari-fənadə zarü səhragərd mən qaldım. Mətai-can xirid etdi rəfiq kərm ikən bazar, Pozuldu rövnəq, ancaq qaldı ahi-sərd, mən qaldım. Xəyalat əhli-xaki-kimiya tək, napədid oldu, Tutub rahi-ədəm iksir-təban, kərd mən qaldım. Görüb dəhrin vəfasın, çəkdilər əl eyşi-aləmdən, Bu viran mülkdə, səd heyf, tənpərvərd mən qaldım. Həqiqət mənzilinə yetdilər mərdi-rəhi-aləm, Mənə bu ar yetməzmi, həmin naməərd mən qaldım Edər seyri-külüstani-bəqa ağgünlülər hər yan, Qara gün içrə gülbərki-xəzan tək zərd mən qaldım. Vəzirü şah rüx tutdu piyadə xaneyi-fərzə, Səməndi-fil ləng oldu, dağıldı nərd, mən qaldım. Müsibət salının tarixi amma oldu "tarixim", Köçüb ustad, Zakir, bihünər şagird mən qaldım.

# ƏMİRZADEYİ-MƏŞUQ VƏ CAVAN AŞİQ

Var idi bir lətif əmirzadə, Xanımanı nəzdik Şətti-Bəğdadə. Əhli-kərəm idi, sahib-nan idi, Öz boyuna sultan idi, xan idi, Sair səlatinin cahü cəlalı, Bunun həm talalı, həmi cəmalı. Gecə, gündüz göydə Müştəri, Zehrə Söylərdi övsafın mahlə mehrə. Şəklü şəmailin görsə afitab, Çəkərdi üzünə pərdeyi-səhab. Ləblərindən edən dəmdə nuşxənd Tökülürdü bəzmə rizə-rizə qənd. Ğəmzeyi-qəttalı, çeşmi-ğəzalı Salmışdı Bağdada yüz qilü qalı, Xüsusən işrətə meyli var idi, Elmi-musiqidən xəbərdar idi. Şairi-süxənvər, arifi-dövran, Saqiyi-gülcöhrə, mütribi-xoşxan; Hazır idi məclisində sübhü şam Ürəfa, zürəfa, nüdəma müdam Olmuş idi ayinəbənd otağı Bədihəgu şairlərin yatağı. O cümlədən bir cavani-biqərin Müqərrəbi-bəzmi-xas idi həmin. Cəzbeyi-eşq onu öylə səbükpa Etmiş idi, daim hər sübhü məsa Bivahimə Şətdən eyləyib übur, Yetişib vüsala dilşadü məsrur; Məclisi-yardə söhbət edərdi, Axşam necə gəlmiş idi, gedərdi. Sairi-yaranü həmdəmü həmrah Bu sirrdən mütləq deyildi agah. Güman edərlərdi, çəkib dərdi-sər, Bu da onlar kimi cisrdən keçər. Hamana bilirdi əcibə karı, Bir xaliq, bir özü, bir də dildarı. Neçə müddət keçdi bu qərar ilə, Hüsni-xidmət ilə, etibar ilə. Bir gün əhli-hüzzar, xəvasü əvam, Be təriqi-sabiq cəm olub təmam, Eylədilər şirin ta vəqti-ğürub Hekayəti-nikü rəvayəti-xub. Dağılıb mənzilə gedən zamanı Biçarə müxatəb edib oğlanı Dedi: "ey müşfiqü mehribani-mən, Bir ayinə tutub hüsnünə bax sən. Görünür gözümə manəndeyi-mah, Dövri-zənəxində ləkkeyi-siyah. Bilməzəm ləkkədir, ey bərgüzidə, Ya əks salıbdır mərdümi-didə". Nimxənd eyləyib dedi: "ey cənab, Ehtiyat ilə get, - olursan ğərq ab!" Anlamadı hərgiz sayir əhbab O nə sual idi, bu necə cəvab. Səhərdən Bağdada düşdü avazə, Əfsus ki, filankəs gedib güdazə. Dün keçərkən olub ğərq abi-fəna, Tutuldu təziyə, başlandı əza. Xüsusən məşuqi-dəyanət-ayin, Giryanü dilbəstə, mükəddər, ğəmgin Yığılıb üstünə ğeyri-həmkarı, Tutdular küllühüm yəsi-dildarı. Möhnətə mübəddəl oldu eyş, işrət, Keçdi macəradən bir neçə müddət. Bir gün yenə bəzm olmuşdu münəvvər, Üz tutub aldılar oğlandan xəbər. Dedilər ki, ey sərsəfi-əncümən! Hərçənd müdrikü fəhməndəsən sən Və lakin rəsulü xətmi-ənbiya Cəbrəili-əmin gəlməyincə ta Sirri-kainatdan deməzdi xəbər, Sən nə cəhət ilə olub müztəhzər Buyurdun: ehtiyat eylə, axarsan; Səhər göyə çıxdı naləvü şiyvən. Əsəri-kəlamın verdi nəticə, Sirri-ayəndəni bilirsən necə? Dedi: nə rəsuləm, nə də danayəm, Fəhmü fərasətdə sizdən ədnayəm. Nəhayət, var munda bir əmri-nihan, Çünki belə düşdü, eyləyim bəyan, O biçarə mana olmuşdu pabənd, Sanırdınız keçir cisrdən hərçənd. Və lakin eşq olub elə səbükpər, Etmişdi, bilirdim, hər şamü səhər Eləməyib əsla əndişeyi-şətt, Yeriyə-yeriyə gəlirdi çün bət. O gün dedi zənəxində ləkkə var, Müşəxxəs eylədim aləm-aşikar; Dildadənin zövqü şövqi olub pəst, Bünyadi-eşqinə düşübdür şikəst. Bildim ki, olacaq ğərq fənayə, Gün ki, ğürub etdi, çəkilir sayə, Eşq əhlinin balü pəri eşqdir, Nikü bədi, xeyrü şəri eşqdir. Quş balü pərilə qalxar havayə, Pər olmasa batar, təki-dəryayə". Eşqdir, seyr etdi rəsuli-xaki Bir ani-vahiddə doqquz əflaki. Eşqdir, Məsihi-fəsihkəlam Ərşi-müəllani eylədi məqam. Odu, Əyyub içdi şərabi-səbur, Odu, kəlim oldu kamiyabi-Tur Odu, ataş oldu Xəlilə gülşən, Davudu yandırmaz tüfteyi-ahən. Zövrəqi-tufandır eşqi-məcazi, Gəl gör həqiqətin nədir ecazi.

# HÜSEYN BƏYİ HƏCV

Var özgə vilayətdə də tək-tək köpək oğlu, Hədsizdi bu viranədə, bişək, köpək oğlu. Hərçənd mana balta çalan çox idi, əmma Məcmudən əfzun bu it-əmcək köpək oğlu! Olmadı deyən bir muna kənd aşrı it ürməz, Bəsdir bu şərarət dəxi əl çək, köpək oğlu! Yüz düşmən ola bir kəsə, bir kəs yıxılanda Filcümlə gərəkdir ola sövkək, köpək oğlu! Qəhri-ümərə atəşi-suzandı, nə layiq, Bərqəsd onu hərdəm üfürmək, köpək oğlu! Fikrin budu, atan yerişi yeriyəsən sən, Xüm cayini haşa tuta cürdək, kepək oğlu! Lazımdı o şəxsin vələdindən həzər etmək Kim, əbləğ ola cəmdəyi lək-lək köpək oğlu! Derlərdi anan zaniyədir, var idi şəkkim, Sən ki, beləsən, yoxdu dəxi şəkk, köpək oğlu! Məşhur məsəldir ki, bitər ot kökü üstə, Səgdən törəyən axır olur səg, köpək oğlu! Bu qədri sana xəlq dedi ağzını saxla, həqqən ol ……………………………….. Qəsdin çörəyin kəsmək idi munca əyalın, Kəssin səni ol kəsdiyin əppək, köpək oğlu! Keçməz belə dövran, sənin də bu səyaqın Bərbad olu çün dövləti-Bərmək, köpək oğlu! Bir kərrə düşübsən qazanılmış çörək üstə, Sanma özünü yoxsa ki, zirək, köpək oğlu! Bu bidəti nə ləzgi, nə şahi sevən eylər, Bu zülmü nə əfqanü nə özbək, köpək oğlu! Haşa ki, culi-ətləs ilə xər ola tusən, Müşküldü demək bədgühərə bək, köpək oğlu! Dişi-dişi pünhani nədi zərbə girişmək, Ey batini zən, zahiri erkək köpək oğlu! İt itdi, ürən vəqt tanır aşnanı, yadı, İrs oldu sizə yetənə ürmək, köpək oğlu! Bədxahlığı tərk eləmə, tənə edər xəlq, Şayistə deyil əsli itirmək, köpək oğlu! Knyaz nə kim, cövr eləsə əmri mütadır, Yox bizdə ona qüdrəti-dinmək, köpək oğlu! Sən kimi, yetən nakəsə, ol qadiri-sübhan Xəlq eyləməyib məndə əyilmək, köpək oğlu! Namərd ətəyindən kişi həngami-zərurət Tutmaqdan isə yaxşıdı ölmək, köpək oğlu! Şinel tapılan yer bizə bir vers yarım var, Hərgah desən yoxdu, gəl ölçək, köpək oğlu! Qan olmadı bir dəfə açıldı qoyun ardı, Daim keçininki olu çərmək, köpək oğlu! Min evlə neçin eyləmisən dəfi-məzərrət, Asandi əgər Behbudu gəzmək, köpək oğlu! Beş-altı gədəm var pərişan, oların da, Kəsb əhlidilər, şüğlü cüt əkmək, köpək oğlu! Poştlar dağıdıb, yol kəsəninki yalan oldu, Gərmək satanın yalanı gerçək, köpək oğlu! Varəm sizin ilə necə ki, var həyatım, Tab eylə bu gündən belə sən tək, köpək oğlu! Bağışla, damağım yox idi, müxtəsər oldu, Müşküldü bu dəm nəzmi yetirmək, köpək oğlu! Bir növ sana sikkə vurum həcv ilə, yüz gəz Suhan çəkələr eyləməyə həkk, köpək oğlu!

# KNYAZ XASAY USMİYEV HAQQINDA HƏCV
## (Rəhimbəy Uğurlubəyova)

Rəhima, çövr edir hər dəm mana bir naqolay knyaz, Gəhi Tərxan, gəh Cəfərqulu, gahi Xasay knyaz. Olub knyaz yatağı bu dağılmış xeyli müddətdir, Fərarət olmarıq bir dəm geday knyaz, gəlay knyaz. O yaxsay, mən qarabaği, mənimlə yox sərü kari, Nə istər bilməzəm məndən genə xingəl-quşay knyaz. Dağıstan dağının knyazlarının ləzzətin gördüm, Qalıbdır bir həmin Əndi, Çeçen, bir Cüngətay knyaz. Səxavət umma ondan, harda görmüş vermək, almağı, Onunki bir odur içsin buzə, çalsın dalay knyaz.

Gələndə bir üzü, bir cüt qulağı, saf quru ....... Xüsusən aləmi etmişdi yeksan püştü pay, knyaz. Yetim düyşək tapanda çünki bir iylər, iki dişlər, Düşüb əmlakın üstə iki əlli qarmalay, knyaz. Dedim ol mədəni-feyzə bulunsun canişin, yarəb, Bulundu, heyf kim, bixeyrü xayin, süstray knyaz. Hərarət çeşmi-kəmbinayə nöqsan olduğun bilmiş, Gələr payız Qarabağə, qaçar Əlbürsə yay, knyaz! Üç ay qış cövrü zülmünə, könül səbr eylə, səbr eylə, Papağın fırla ha gəldi, yaz olcaq ustupay, knyaz. Yetirdi həq sana bu dövləti birəncü bizəhmət, Tikər kor leyləyin həqqa, yuvasın ol xuday, knyaz, Qəzanın gərdişin gör kim, verib bu Şişə şəhrində Gəlib bir naqisü nadan yapa köşkü saray, knyaz. Belə knyazı həqq alsın əlimdən, mən tutum matəm, Vurub başimə hər ləhzə deyim: ey vay, vay, knyaz! Qolumuzdan tutan yox, qılçımızdan qaldıran çoxdur, Bizə qəht oldu bu aləmdə bir müşkül-güşay knyaz. Bir ayqır tay-bağırsaq olsa at ondan qulun tutmaz, Budur vəhmim-bizim düxtər gəzə daim subay, knyaz. Ləamət öylə qalibdir o bidinü dilazarə, ; Siyavuş qanıdı yanında bir fincan çay, knyaz. Əgər yoxdur bu illət səndə yüz lənət mana gəlsin, Sifatın zəmmini nəzm ilə yazdım cabəcay knyaz.

## MƏHƏMMƏD BƏYƏ

Əziza, mən sana bir cilqiyi-şahanə göndərdim, Əcayib töhfədir, mən həm əcəb oğlanə göndərdim. Bəyazi-çeşmi-məhbuban kimi şəffaf, seyqəlli, İçində mərdüməkvəş mən onun bir danə göndərdim. Və ya inki fərar olmuş ğulami-hind kuyindən Tutub saldım, qolu bağlı çəhi-zindanə göndərodm. Həqarət çeşmi ilə baxma cana, üstüxan sanma, Çıxardıb, nəqdi-canımdır, mən ol cananə göndərdim. Saluban getmədi, çün baz gəldi yaz ol şəhbaz, Bu bir tövqi-iradətdir, ona nişanə göndərdim. Tək indi şəhri-dildə tab qıl, ey ləşkəri-möhnət, Cəfavü cövrünü yazdım, bu gün sultanə göndərdim. Şikəstə Zakirin mən etmə sövqatın görüb biqədr, Xüturi-xatirinçün tapmadım bahanə, göndərdim. MƏHƏMMƏD BƏYƏ /*Ol -kərimi-karsazə sığınıb, Yazmış idin bir əfsanə, Məmməd bəy! Ağdamda yetişdi mənim dəstimə, Şərh eylədim bir-bir xanə, Məmməd bəy! Məqami-təslimdə qövmü qardaşın Bir əppək yeməzdi, olmasa xaşın; Canın çıxsın, indi böyüyüb başın, Salıbsan özünü qanə, Məmməd bəy! Gözəl otaqların qalıb natəmam, Ötən, keçən….. içinə müdam; Qan tökülür gözlərimdən sübhü şam Hər baxanda o viranə, Məmməd bəy! Ərməniyə basdın ərəq çaxırı, Çıxmadı bir yanə işin axırı. Məsəli-məşhurdur:….naxırı Ziyankar olsa bir danə, Məmməd bəy! Demə bədxahimdi mənim filanı, Əl çəkmə bu işdən, xeyrini tanı; ……………………saqqalının bir yanı, Tək sahib ol Zəngilanə Məmməd bəy! Məsələamuzun molla Zülfüqar, Qazi ilə çoxdan rəfaqətin var; Sənin kimi kafir olmasın düçar Heç bəndeyi-müsəlmanə, Məmməd bəy! Bacı və qardaşı eylədin məğbun, Ğönçə kimi təmam olub cigərxun, Gəleydi zəlzələ, afəti-taun Sən gəlincə Üçoğlanə, Məmməd bəy! Baş qırxmaqda yədi-beyzan var idi, Atbaş oğlu sana xidmətkar idi. Becan bəyin ülgücünü var, indi Götür, çəkil bir dükanə, Məmməd bəy! İlxı Xan qızının həqği-həlalı, Muradxan şahiddir, yox qiylü qalı; Özün qazanıbsan qoyunu, malı, Böyük bəy danışır canə, Məmməd bəy! Aləm

bilir, tamam sənindir Cünun olma, nə könüldür, nə xatır; Böyük bəyə iki dəvə, bir qatır Niyə verdin, ey divanə Məmməd bəy? Hərçənd validən olub tündxu, Qarışır hər işə, edir cüstücu; Bəy evində gərək balişi-pərqu, Qoy daş üstə yatsın anə, Məmməd bəy! Kiçiyə nə gərək kənd-kəsək işi? Böyük ilən olur alış-verişi, Götürsün tulanı, gəmişşin quşi, Keyfə baxsın alişanə, Məmməd bəy! Qələt yazıb sizin ərzəni yazan, Tökülüb üstünə bir bölük xizan; Kisəbürlük elə, tək yekən qazan, Nə baxırsan ada, sanə Məmməd bəy! Bayram hər nə desə doğrudur sözü, Bu işlərdən tamam vaqifdir özü, Sənn istəməyən kor olsun gözü, Əcəb darıyıbsan kanə, Məmməd bəy!*/ MƏHƏMMƏD BƏYƏ /*Eşitdim naməyi-mehrü məhəbbət Yetişir daima Pəridən sana. Aşiqin məşuqi gərək çağ olsun, Nə hasil o quru dəridən sana?! Əzəl sevdin Fatma ilən Məryəmi, Onların dalınca Şahi-Sənəmi. Belə sevda xərab eylər adəmi, Özün bil, deyirəm bəridən sana. Biri piri-kamil, ikisi sadə, Oynaş olmaz üçdən, dörddən ziyadə. Tapşırıb …… Şirin Fərhadə, Bəlkə fürsət ola………sana.*/ MƏHƏMMƏD BƏYƏ /*Nəzmi-şəkərbarın gəldi yetişdi, Ay Qasımın püştü pənahı Məmməd! Əcəb tanıyıbsan çərxi-bədkarı, Pir olasan görüm, vallahı, Məmməd! Onun kimi bir əcuzə hiyləgər, Tapılmaz, gəzəsən cəhanı yeksər; Bir dənizadəni tacvər eylər, Göz ucilə qılsa nigahı, Məmməd! Çün özü dişidir, sözü dişini, Sizdən yaxşı mən bilirəm işini, Nəzər salıb bir………. kişini İranın eylədi padşahı, Məmməd! Bəslədi Teymuri-Ləngi bir müddət, Geydirdi əyninə qəbayi-heşmət; Kor Səlimə verdi nə növ dövlət, Müşküldü eyləmək siyahı, Məmməd! Mədəni-xətadır, nəfindən əl çək, Ayaqlar hər yerdə fəqiri görcək; Yastıpapaq eylər kimini mən tək, Kimi başa qoyar külahı, Məmməd! Cahanə, bişübhə, gedəcək gələn, Bu yer deyil, bizə ayrıdır vətən; Başa yetib ömür, indi sən və mən Oruc tutaq gərək se mahı, Məmməd! Bəy ikən adımız olub mülkədar, Rəiyyət indidən bizə ... atar; Ellik ilə bu halətə nə ki, var Gərəkdir ki, çəkək yüz ahı, Məmməd! Bundan isə yeydir diyari-ğürbət, Al başını, dur get, əlbət, səd əlbət! Var isə məhrəmin, bir soruş xəlvət, Nə idi bu xəlqin günahı, Məmməd? Bu dövri-fanidə bulmadıq zayə, Ömru verdik əbəs-əbəs fənayə; Gəl Məşhədə gedək, ya Kərbəlayə, Budur kəlamımın kütahı, Məmməd!

## MİRZƏ MEHDİYƏ

Dedim fuladını nərm eyləyəsən, Sən eylədin səngi-xarə, əzizim. İnşaallah olur ləhaf müsəlləm Belə keçsə varə-varə, əzizim, Asi rəyət bəyin yada salırmı, Ağa sözün…….. alırmı, Fuladi-bədgühər yumuşalırmı Ta düşməyə yalavlarə, əzizim. Birah əngər soyuq döyə dəmiri, Çıxmaz çəkişindən səsi-səmiri. Mühəssilin uzun olsun ömüri, Xub salıb onları darə, əzizim. Yetişən tək alıb qulluq da yekin, Bizim mülazimə göstərib…….. Eşşək ki, xamladı götürməz yükin, Gətiriblər bizi zarə, əzizim. Canə yetdim dərdü ğəmü möhnətdən, Qurtarmadım əndişədən, xiffətdən; Başımı götürüb bu vilayətdən etməliyəm bir diyarə, əzizim. Mundan əvvəlkilər çalışıb Hərçənd Bir ev tikməyiblər ola dilpəsənd;

Sarcalı xəlqini başdan xudavənd Yaradıbdır günüqarə, əzizim. Bizlər kimi bir-birinin bədxahı Tapılmaz, gəzəsən aləmi dahı. Onun üçün ğəzəb edib ilahi, Xayinik aşnaya, yarə, əzizim. Gözəl köhlənləri gecə sübhədən Minib çapıb, qulun tökdürür Həsən. Nəsihət eyləyib hərgiz deməzsən Çəkib onu bir kənarə, əzizim: Ey bihəya, həzər eylə xudadən, Usan təqəllübdən, cövrü cəfadən. Peşiman olursan bu macəradən, Yetirirlər sahibkarə, əzizim. Yenə tazə oğurlanıb bir yabım, Dəxi ziyanlığa qalmayıb tabım; Budur sizə əvvəl-axır cavabım: Bu işə eyləyin çarə, əzizim! Qarabaldır xəlqi oğru yatağı, Tapılmaz gəzəsən doğrusu, sağı Hamıdan bir kənar, o it uşağı Talan salıb aşikarə, əzizim. Fəqir-füqəranın qoyunu, malı Yarım saat deyil xətadən xali. Sakit etmişdiniz bu qiylü qalı, Yenə qarışıbdır arə, əzizim. Baxşıdan görmüşəm mehrü vəfalər, Bizdən yetir ona hədsiz dualər, Xeyrxahəm ona sübhü məsalər, Cahangirü cahandarə, əzizim.

## HÜSEYN BƏYİ HƏCV

Var mülki-Qarabağda çox dun kepək oğlu, Haşa kim, ola bir belə məlun köpək oğlu! Sən sənki-cəfabirlə mənim könlümü yıxdın, Yıxsın evini qadiri-biçun, köpək oğlu! Yox səndə məgər şərmü həya, bir kəsə eylər Bu zülmü nə həccacü nə Məmun köpək oğlu! Munca nədi kim, dinini dünyayə satırsan?! Yığdı o qədər neylədi Qarun köpək oğlu! Bir dərdə salıbsan ki, məni çarə tapılmaz, Hərgah gələ Loğmanü Fəlatun, köpək oğlu! Eşşəkdən at olmaz, çulunu eyləyəsən gər Ya tirməvü ya ətləsi-gülgun, köpək oğlu! Əfali-bədin qıldı Qarabağı müləvvəs, Pak etməz onu lücceyi-Ceyhun, köpək oğlu! Hərçənd müsəlmandı adın, yaxşıdı səndən Taətdə Mıkırdış ilə Ərtun, köpək oğlu! Kimdir o çörəksiz qapına şad gəlib, axşam Qayıtmaya dilxəstəvü məhzun, köpək oğlu! Üftadələrin dəstini tut ta nəfəsin var, Həmvarə dolanmaz belə gərdun, köpək oğlu! Hər kim tanıdı, tapdı səni, oldu peşiman, Bir mən deyiləm beylə cigərxun, köpək oğlu! Kimin evinə düşsə sənin məqdəmi-şumün, Yeydir ki, düşə zəlzələ, taun, köpək oğlu! Hər bəndini bir kəsdən alıb madərin, oldur Səndən görünür kari-digərgun, köpək oğlu!,,. Bir acı xiyarca mana iş görmədin əsla, Dursun gözünə yük-yük o qavun, köpək oğlu! Dörd yük sarı buğda keçən il vurdu qatırçın, Yolda üyünüb getdi sizə un, köpək oğlu! Dünya işi əql ilə deyil, talei-meymun Çəkmiş nə yerə gör səni, meymun köpək oğlu!

# BÖYÜK BƏYƏ

Ey böyük bəy, bizə sən verdiyin təxt Mənim dişlərim tək ovraq olubdu Çürüyübdür payələri sərbəsər, Bir tutumdan hələ alçaq olubdu. Pozulubdu, daşlıbdı dörd yanı; Əgər göndərəsən usta Sehranı, Yəqin bil ki, yoxdur qurmaq imkanı Bir növ ilə gərdən-bucaq olubdu. Bir payəsin mıx çalmışam danaya, Birisi gəlmədi heç ovsanaya, Birin övrət paz yondurub hanaya, Birindən bir əcəb toxmat olubdu. Dağılıb iqlimi-İranə dönüb, Yıxılıb sərayi-viranə dönüb, Əyilib- qaməti-piranə dönüb, Tamam paçələri çoynaq olubdu. Neyləsin, işlənir müddətdən bəri, Qalmayıbdı hərgiz şənlik əsəri; Sındıqca yonulub döşəmələri, Ən uzunu iki barmaq olubdu. İp ilə baş-başa çatmalı deyil, Götürüb ocağa atmalı deyil, O qədər güdəlib-yatmalı deyil, Uşaq beşiyindən qıvraq olubdu. Lazımdı qocadan eyləmək həzər, Ölməyi övladır, bihudə gəzər, hər zaman uzansam böyrümü əzər, Sanasan ki, quru qaltaq olubdu. Natəvanəm birə mənə küc eylər, Heç bilməzəm yerdə yatan neceylər. Ta sübhədən qaşınmaqdan gecələr Var əndamım dırnaq-dırnaq olubdu. Rəncü təəb əsər etməz qalına, Axşamadən yük götürə dalına. Mən zərdü zəifəm, xoşa halına Hər kim ki, sənin tək topçaq olubdu. Bərabər gərəkdir uzunu, eni, Qorxuram təng ola, incidə məni, Çünki il yarımdır bizim keyvəni Yatmaqda mənimlə ortaq olubdu. Ey mədəni-səxa, ey kani-kərəm, Gərəkdir gözlüyə adəmi adəm; Bəxş eylə Zakirə bir təxti-möhkəm, Qoyma, xabgahım çardaq olubdu.*/ BÖYÜK BƏYƏ I /*Böyük bəyin xanimanı abadan, Bizə bazi-kəmşikarı göndərmiş; Quyruğu yox, şəhpərinin üçü yox, Bir naqisi-dilazarı göndərmiş. Demə, deyir yalan filani mana, Lənət ol kimsəyə dediyin dana. Qanadı, quyruğu, peşkəşdi sana, Saf topaldı barmaqları, göndərmiş. Həvayi-seyddən enən zamanda, Möhnət tüyuruna minən zamanda, Boş əl ilə teyrə dönən zamanda Səkib, səkib bizə sarı göndərmiş. Bir il verib ol Məhəmməd darğaya, O da süvar olub qulan yorğaya; Qanıq edib sağsağana, qarğaya, Görüb ki, yamandır karı, göndərmiş. Turac çolpasına üz tutar tək-tək, Gözün yumar bozu, xoruzu görcək, Xanə-nüzul imiş lələ Qurban tək, Başdan edib ol yassarı, göndərmiş. Hər zaman ki, plov düşsə xaşıma, Zoğal axtasıdır qara, aşıma; Əlimdən çıxan tək qonar başıma, Bir sahibi-etibarı göndərmiş. Nə qədər aparıb ataram genə, Məndən əqdəm görrəm gəlibdir yenə. Bu növi quş olmaz məgər ki, mənə Bir bəladır göydən tarı göndərmiş?! İstər uzaq apar, istər yavuğa, Qayıt gəl, özünü vermə sovuğa; Axşam gələcəkdir kəndə tovuğa, Lazım deyil intizarı, göndərmiş. Xoş ünnək olaydı Fatimə kimi, Özgə illətinin yox idi ğəmi. Ələ gəlməz, çox incidir adəmi, Bədrəvişü dəvətvarı göndərmiş. Paçabəndi mal gönünün deşməsi, Şikarıdı keçi qılı eşməsi; Maşallah, boğazının keşməsi, Mühəyyadır hər bir karı, göndərmiş. Qumrovunun səsi bir növ ilə bəm, Çatı boyu olsa, eşitməz adəm, Alətü asbabı olaydı möhkəm, Tapaydıq itəndə barı, göndərmiş. Bəhləsini deməyin, avarədir, Mənim kürküm kimi parə-parədir. Gündə bir cücədən günüm qarədir; Canımıza alovları göndərmiş. Tapmadım cahanda bir yari-dəmsaz, Çox cəfasın çəkdim, vəfa gördüm az; Dost dosta göndərir bazi-dilnəvaz, O da mənə ahü zarı göndərmiş. Bunların işləri cümlə təltəldi, Təltəl işdən fayda yoxdur,-məsəldi. Özü yolda öldü, cələsi gəldi, Dadaşı da bir bimarı köndərmiş. Zakir, bundan artıq dəxi söz demə, Batırma oğlanı ğüssəyə, ğəmə. Belə ... adam verməz adəmə; Əlbəttə, bu imiş varı, göndərmiş.

## ŞUŞA MOLLALARI HAQQINDA

Heyf, səd heyf, bu iş bulmadı əncam yenə. Üləma özlərini eylədi bədnam yenə. Şişəyə dəsti-qəza səngi-cəfa yağdırdı, Şişəvəş sındı bu gün rövnəqi-islam yenə. Var idi mədrəsəyə rəğbəti xəlqin, qovğa Düşdü nahaq yerə ortaya bu axşam yenə. O qədər keçmədi ki, sülh binası pozulub, Bir-birə şıllaq atar Şeyxəki-əyyam yenə. Duş həmkasəvü həmsöhbət idi, eylərlər Haliya bir-birinin küfrüni elam yenə. Neçə müddətdi kəsad olmuş idi, oldu rəvac Şəhrü bazardə latailü düşnam yenə. Görmədik biz buların dövrdə bir eydi-şərif, Oldu məsdud dəri-zikr bu bayram yenə. Zövqü şövq ilə səhərdən rəhi-məscid tutduq, Zarü məhzun qayıtdıq həmə nakam yenə. Misli-səyyadi-cəfapişə yerə danə səpib, Hərə bir növ qurar mürği-dilə dam yenə. Yekcəhətlik pozulub oldu qələm tək düzəban, Yazılır şamü səhər tənlə peyğam yenə. Bu nə saziş, bu nə islah, çıxıb mənbərdə, İki gün keçmədi düşdü işə eyham yenə. Bu sifətlə belə, biz naqisi gör, onlardan Kəsməzik hiç ölüncə təməi-xam yenə. Var bir qabilü kamil, ona da əhli-nifaq Ta dinib, derlər, olubdur kişi sərsam yenə. Xələti-xosrovi-dəhr eylədi əngüştnüma, Oldu ta Məmmədəli sahibi-ənan yenə Var ümidim edə knyaz bu pərxaşə bina, Tazədən əhli-vilayət tuta aram yenə.

## SƏDAQƏTLİ DOSTLAR HAQQINDA

Bir tısbağa, bir kəsəyən, bir qarğa Yoldaş olmuş idi bundan sabiqa. Pakizə məkanda tutuban vətən, Asibi-dəhrdən asudə, eymən. Övqat keçirirdi yazü yayü qış, Eyşü nuşə məşğul idi bitəşviş. Bir ahu şol yerə eyləyib güzar, Üç ikən həmdəmü həmrah oldu çar. Səhərdən dağılıb hərə bir yana, Günorta zamanı gəlib məkana, Başından keçəni eylərdi söhbət; Bu hal ilə dolandılar bir müddət. İttifaqən, bir gün gəlməyib ahu, Aldı yoldaşların canını qayğu. Qarğaya dedilər: "dur, aç pərü bal, Gətir biçarədən bizə bir əhval. Şayəd ki, fəqiri, xudanəkərdə, Damə salmış ola səyyad bir yerdə" Biməksü təvəqqöf ovcə qalxıb zağ, Dolanıb hər tərəf edərkən soraq, Gördü ki, heyvanı səyyadi-birəhm, Üqubəti-həqdən eyləməyib vəhm, Tutub, əl-ayağın barlayıb möhkəm, Atıb günə qarşı, özü gedib həm. Dami-təzvirini qurubdu genə, Şayəd özgə şikar sala çənginə. Ahuyi-pabəndə verib təsəlli, Qanadı on isə, eyləyib əlli. Gəlib həmrəhlərə gətirdi xəbər, Bir parə naləvü şiyvən etdilər. Təkəllümə gəlib dedi kəsəyən: "Onun əncamını yaxşı billəm mən. Məni qanadının üstünə götür, O yer ki, ahunu görübsən, yetir. Be-hövli-qüvveyi-xaliqi-zülmən, Bir ləhzədə bəndin parə qıllam mən". Bu tədbiri həmə eyləyib pəsənd, Oldular, filcümlə, dilşadü xürsənd. Kəsəyəni qarğa alıb dalına, Olan gücün verib pərü balına, Bir zaman yetirdi ahuya muşi, Qalmamışdı səbrü qərarü huşi. Zərbi-dəndan ilə kəsib kəməndin, Bir əndək qalmışdı dəf edə bəndin, Gördülər tısbağa üftanü xiyzan, Özünü yetirdi şol yerə nalan. Zəbani-təərrüz etdilər diraz, Söylədilər: "bu nə işdi, anlamaz?! Nə fikr ilə gəldin burayə, görək, Səndən bizə olacaqdı nə kömək? Məgər ki, gələndə səyyadi-pürfən Biz qaçaq, qalasan aralıqda sən! O da bizə ola əlahiddə dağ, Gərəkdi dübarə çalaq əl-ayağ". Dedi: "ey yarani-ba-istiqamət, Ayini-dostluqda

deyil mürüvvət Aşinanın biri gəzə asudə, Şol birisi qala dami-qayğudə. Girəm ki, məsrəfim yoxdur bir karə, Necə dura billəm sizdən kənarə? Tanrı o yoldaşa eyləsin ğəzəb, Kim, dari-dünyada ola xüdtələb! Üç həmrəhi-sadiq tək olsun azad, Mənimki səhldir, hərçi bada-bad!" Göftügunu bunlar etməmiş təmam Gördülər ki, gəlir mərdi-bədəncam. Həmrəhi-çarümdən əl çəkib naçar, Ahu, siçan, qarğa etdilər fərar. Səyyad gəlib ol məqamə yetişdi Kim, ahunu pabənd edib getmişdi. Baxıb hər tərəfə etdi nəzarə, Görmədi be-ğeyr əz rismani-parə. Bir də bir tısbağa zarü sərgərdan, Yaşınmaq qəsdilə dolanır hər yan. Bəs ki, çox yüyürüb eniş-yoxuşa, Ov tapmayıb əli çıxmışdı boşa. Tısbağanı labüd torbaya saldı, Ağzını bağlayıb dalına aldı. Yornuq köpək kimi ovçu ahəstə Yol başladı, ixtiyarı güsəstə. Qarğa dövr eyləyib ovci-həvadə, Baxardı əməli-ibni-Ziyadə. Gətirdi həmrəhi-fərarə xəbər, Hali-binəvadən olub müstəhzər, Muşi-sahibi-huş tapıb bir tədbir, Dedi: "durmaq vəqti deyil, ey nəxcir! Sən eylə məkr ilə payını axsaq, Səyyadın önündə dolan bir səyaq. Fikr eyləsin asan tutaçaq səni, Xəyali-xam ilə atıb kisəni, O olsun şikarın tutmağa məşğul, Mən ollam torbanı yırtmağa məşğul. Ol zaman ki, qarğa eylədi səda, Bil ki, tısbağanı etmişəm rəha. Səbr eylə bir qədər ta ki, biz qaçaq, Sən də sıçrayıb gəl yenə qarışaq". Bu məkr ilə oldu dü məhbus azad, Qayıdıb gəldilər məsrurü dilşad. Bu məsəlin vardır ona nisbəti: Bir kəsin bir kəsə ola ülfəti, Gərək zar olanda, o da zar ola, Həmişə dostundan xəbərdar ola. Nəinki dost qala dami-bəladə, O gəzə arxayın dəştü səhradə. Həm dəxi həqarət gözilə, zinhar, Baxıb bir adəmə eyləmə inkar. Hər meşəyə güman aparma boşdur, Xudbinlik kişiyə nə kari-xoşdur, Yazıbdır Sədiyi-şirinkəlam, Əmləhüş-şüəra, arifi-əyyam:, "hər bişə güman məbər ki, xalist, Şayəd ki, pələng xüfte başəd"*/

## MİRZƏ FƏTƏLİYƏ

Gözüm yolda qaldı, könül intizar, Gəlmədi cavabi-namələr səndən. Bir aydan artıqdır gedib uşaqlar, Yetişmədi bizə bir xəbər səndən. Aşina, müsahib, yarü həmsayə Lazımdır yetişə ğövrə, harayə; Kitabətin dəyər mülki-dünyayə, Nə hacət istəmək simü zər səndən? Tək yaradıb səni vahidi-yekta, Əxlaqına, ətvarına mərhəba! Neyləmisən Molla Səfi, Bəybaba Məmnundu, əzizim, bu qədər səndən? O vilanın yoxdu bu yer tək pisi, Təqəllübü, hərzəkarı, xəbisi; Yaxşı gördüm tamam əhli-Tiflisi, Razıyam nəhayət biştər səndən. Olan dəmdə mana mənzil Şadno Hər tərəfə eylər idim təkü do. İvano-bəy, Kolyubakin, İliqo Çalışırdı, əlhəq, bərabər səndən. Həsən bəyə söylə əmri-məlumi, "Qəziyyə məlumdur deyəndə rumi". Sərəfraz eylərsən yüz bəxti şumi, Zahir olsa əgər bu hünər səndən. Tutub damənini sən tək əmirin, Təvəqqöün eylər iki əsirin; Qarabağ mülkündə bir mərdi-pirin Təmənnası budur, taci-sər, səndən! Qoyma ki, ğürbətdə gedələr zayə, Sayə salmaq təqazadır hümayə: Laçın balasıdı gəmiş sonayə, Seyd etmək olardan, balü pər səndən. Salıbdır bəlaya dəbənganali, Dağılıb əmlakı, dövlətü mali; Sakit eyləməyə bu qilü qali İstər o xoştəbi-süxənvər səndən. Tutuşub mənimlə çərxi-bədəfal, İt……girsin ha beylə iqbal; Bizim üstümüzdə, ey

nikuxisal, Eşitdim incinib Yekəpər səndən. Baş verən zamanda bu əmri -əbəs, Gərək ona sən deyəydin: "ey tərəs, Sən bir ağacsan ki, ömründə heç kəs Nə sayə görübdür, nə səmər səndən. Çoxların qılıbsan çörəyə möhtac, Axtarır, tapılmaz dərdinə əlac; Fironü hamanü Zöhhakü həccac Ola bilməz, ola sitəmkər səndən. Bidətin yandırıb qövmü əshabi, Müşküldü gətirmək bu zülmə tabi. Düşüb Cəbrəilli, Maralyan, Babi, Horadiz, Qoyucaq dərbədər səndən. Zülmü sitəminlə aləm dolubdur, Əhli-beytin rəngi-ruyi solubdur, Neçə rövşən xanimanlar olubdur, Şəbi-yelda kimi tirətər səndən. Böyük oğlun kəzər payi-piyadə, Şol biri də tələf oldu aradə; Xah gəda, xah büzürgzadə, O kimdi çəkməyə yüz zərər səndən? Sikkə olmaz övladının cibində, Rizqləri yırtıq çuval dibində; Can verdi madərin özgə evində, Nə düxtər yarıyıb, nə pesər səndən. Ömri-təvilinə budur ki, dəlil, İstəməz üzünü görə Əzrail; Bundan sonra hələ yaşarsan yüz il, Vəchi budur, əcəl yan gəzər səndən. Üləmayə dersən föhşü latayil, Təriqi-islama deyilsən qayil; Bu hal ilə yenə çox əqli zayil Gəlib eşiyinə zad istər səndən. Təsəllütün yetsə şeyxül-islamə, Anı bizdən betər salırsan damə; Əbəs yerə düşmə xəyali-xamə, Nifrət eylər, billah, kim görər, səndən. Mən səni tanırdım, işlərin qandı, Yüz deyələr, elə haman-hamandı; Elə bilsin padişahi-zamandı, Hər kim iraq ola, müxtəsər, səndən. Təqəllübdə, təfəttündə- ustadsan, Doğru sözün yoxdu, kizbə mötadsan; Qatili-imamsan, İbni-Ziyadsan, Lazımdır eyləmək əlhəzər səndən. Vəsfi-sifatından danışdım xeyli, Eşitsin hər kimin var isə meyli; Elə yalqız Zakir deyil gileyli, Azürdədir aləm sərasər səndən".

## İSMAYILBƏY QUTQAŞINLIYA

Bu əhldən mehribanlıq görmədim, Məgər bizə ola o yandan mədəd. Qutqaşın tərlanı, Şəki şəhbazı, Sakini-biladi-Şirvandan mədəd. Qarabağ əşxası yeksər yağıdır, Əvvəldən axıra zülm ocağıdır; Bir gecədə canavarlar dağıdır Olmasa kəlləyə çobandan mədəd. Nücəbalər qədrin bilir nücəba, Əxlaqına, ətvarına mərhəba! Daş-daş üstə durmaz aləmdə əsla Dəyməsə insana insandan mədəd. Fəzayi-möhnətdə qalmışam möhtac, Uşaqlarım olub vətəndən ixrac; Təbibi-haziqsən, eylə bir əlac, Yoxdur mana özgə dərmandanədəd. Yığılsa bir yerə yüz alinəsəb, Danışığın mənat, sözün müntəxəb; Aləm bilir bivasitə, bisəbəb Müşküldür arizə divandan mədəd. Həzrəti İsmail olsun dəlilin, Yetiş imdadına piri-əlilin; Necə fərzəndinə ol dəm Xəlilin Cəbrail gətirdi qurbandan mədəd. Əsasi-qiyamət olanda bərpa, Kimdir ğövrə yetən ondan masiva; Sərdəftəri-rəsul, Xətmi-Ənbiya Tənzili-ayeyi-Qurandan mədəd. Çərxi-fələk salmış məni bu halə, Malü mülküm tamam getdi zəvalə; Qaidədir şərməndeyi-əyalə Yetişir sahibi-ehsandan mədəd. Gəlməyib mütləqa ruyi-zəminə Tab edən mənim tək qəza ğəminə; Zövrəqi-əltafın dili-həzinə, Gümanım var, verə tufandan mədəd. Namərd ətəyindən tutasan yüz il, Etibarım yoxdur həll ola müşkül; Olsa, olacaqdır dərdinə, ey dil! Xələfi-Nəsrullah Sultandan mədəd. Zakirəm həmişə sən tək sərvərə, Xoş göstərsin səni xaliq nəzərə; Eyb etməz alişan üməralərə İstəmək duayi-pirandan mədəd.

## İSMAYILBƏY QUTQAŞINLIYA

Səni aləmdə, ey arami-can, hər kim zəlil istər Anı zillətdə bu ğəmdar könlüm ayü il istər. Şərabi-cami-bəzmi-iltifatın nuş edən bir gəz Nə Kövsər arizu eylər, nə abi-Səlsəbil istər. Deyil asan qürbi-padişahi-əsrə yol bulmaq, Sifati-nikü ətvari-xoşü xülqi-cəmil istər. Məni qovğayi-şəhri-bəhri-Baku təlxkam etməz, Nədən kim, aşiqi-şeyda olan kəs qalü qil istər. Kamalə yetmək olmaz, bisəyahət, haliya könlüm Təmaşayi-biladi-Misrü seyri-rudi Nil istər. Mənə derlər ki, sən "peyğəmbərəm" derdin,-nə işdir Deməzlər mərdi-mömin möhnətə əcri-cəzil istər. Cəfayi-dəhrdən azürdəlik eyni həmaqətdir, Bəlanı xoş tutar İdrisü Əyyubü Xəlil istər. Mənəm varis bu gün Yəqubə, fərzəndi-əzizimdən Gələr buyi-fərəh gəh-gəh, əgər rəbbi-cəlil istər. Məni-pirü süxəndanın nədir cürmü, xudavənda! Üqubətdə o bişərmü cəfakarü mühil istər. Tapılmaz böylə bir bədhal zalim hiç millətdə, Yığılsa bir yerə Əndi, Qumuq, Axtı, Rotil istər.*/ Məsəldir ki, xəta bir beylə adəmdən iraq olmaz. Bu bir əmri-müşəxxəsdir, nə vəhyi-Cəbrəil istər. Qarabağ içrə ar gün görmədim, mən tirəbəxt oldum... Anınçın xatirim ol qövmi-birəhmi qətil istər. Şəriri-biqərəz olmaq təqazayi-təbiətdir, İnanma bir kəsi xoşnud aləmdə bəxil istər. Bizim mədümləri, zinhar, pənd ofsari bənd etməz, Oların, naqeyi-qalmıq kimi, burnu qəzil istər, Edər yadi-gülüstani-vətən ğürbətdə dil mürğü. Qəfəs qeydindən azad olmağa daim dəlil istər. Nəhayət şərhi-hal etmək yetən namərdə müşküldür,. Sənin tək bir əmiri-pakzadü baədil istər. Təvəkkül əhliyəm mütləq, yapışmam xarü xaşakə, Füsürdə cismim olsun saliha ğərq abi-seyl istər. Səxavət, ya vəsatət zat iləndir, mərdi-biəslə, Muradı hasil olmaz yüz düşə bir kəs dəxil istər, Nihali-məqsədi sərsəbz olub əflakə yetməzmi O kəslər ki, rizayi-xatiri-piri-əlil istər? Süxən meydanı, qibləm, təng idi, söz müxtəsər keçdi Sənin övsafını nəzm etməyə bəhri-təvil istər. Yetən tək şəhrə hacı bəndəyə bir təxt bəxş etdi, Bilir ki, bazdəsti olsa hər qanda tüfil istər. O yerdən azimi-Tiflis çoxdur, yaz ki, Mirzayə Filani, bir döpü pərvərdə səndən zəncəbil istər. Əgərçi var Dağıstani kürkü Zakirin, əmma Cənabından dəxi bir sarı kürki-Ərdəbil istər. Deyildi sabiqən əhli-təvəqqö, şimdi Bakudə Əlaci-kəsrəti-sərma üçün çizi-qəlil istər. Dağılmış xanimanı, incimin əxzü sualından,. Tikəndə quş yuva çör-çöp yığıban zir-zibil istər.

## MİRZƏ FƏTƏLİYƏ

Nə xabi-qəflətdi, divanə könül, Aç gözünü, süni-xudayə bir bax! Sana ki, qalmayıb ğəmi aləmin, Seyri-bağə, zövqü səfayə bir bax! Qıl tamaşa nov-ərusi-baharə, Qənimətdi beş gün ömri-dübarə; Səhni-çəmənlərdə qümri, həzarə Nə xoş verib səda-sədayə, bir bax! Gərdişi-dövranın, ey xanəxərab, Aparır möhnətin gərdişi-şərab; İçməsən də içmə özün meyi-nab, Eyşü nuşi-bayü gədayə bir bax! Yasəmənin ətri çöküb jaləyə, Gəlir gülüstandan buyi-ğaliyə; Gahi bənövşəyə, gahi laləyə, Gahi də nərgisi-şəhlayə bir bax! Sərvü sənubərin afəti-xəzan Soyub libasını qoymuşdu üryan; Gəlib tərəhhümə sərvəri-

cahan, Verdiyi xələti-zibayə bir bax! Əgərçi xəstəsən, bir dur əyağə, Ahəstə-ahəstə güzər qıl bağə; Qəh-qəhi-minayə, rəqsi-üşşaqə, Cəh-cəhi-bülbüli-şeydayə bir bax! Seyrə çıxıb dəstə-dəstə gözəllər, Çiçək dərib tər buxağa düzəllər, Qaqqıldaşa-qaqqıldaşa gəzəllər, Canlar alan sövtü nəvayə bir bax! Şəqayiq, qərənfil, süsən, nəstərən Zəbani-hal,ilə oxur müstəhsən; Həvayi-kuhsar, səfayi-çəmən Tən edər cənnətül-məvayə, bir bax! Necə oldu Cəmşid, Firidun, Kavus, Söhrabi-namvər, Fəramərzü Tus, Əsasi-İskəndər, gənci-Dəqyanus Tamam getdi badi-fənayə, bir bax! Bu dari-dünyanın yox etimadı, Sənin də rehlətin bugün fərdadı; Sal yadına nəqli-Şirin-Fərhadı. Sərgüzəşti-Məcnun-Leylayə bir bax! Mənim tək deyilsən, əzizim, sənin Kür kənarı, yol üstüdür məskənin; Ləzzətini apar gəlib-gedənin, Nazənini-fərdi-əlayə bir bax! Hallavarın bu səmtinin gözəli, Bazar günü gəlisayə çox gəli; Laçın tumaqəli, tərlan cilvəli, Səri tər cıqqalı sonayə bir bax! Duyuq düşsə əgər verməzlər rüxsət, Unutma gah-gah tapanda fürsət Molla Əhmədi də Axunddan xəlvət, Al yanına, mələksimayə bir bax! Əracif göftüku eşitmişəm mən, Biləm necəliyin olmadı gələn; Deyirlər hamamda bir fahişə zən Biədəb söz deyib Mollayə, bir bax! Fisqü ficur həddən aşıb Şişədə, Erməyi, dişisi yaman peşədə. Mənəm qalan həmin bu əndişədə, Zəmanə dolanıb, qovğayə bir bax! Sürahi solunda, badə sağında, Məzə qabağında, mey dodağında, Çeşmə kənarında, çay qırağında Əmmameyi-seyyid, mollayə bir bax! Vaiz bizə söylər şəri-Müstəfa; Hərамə mürtəkib olmayın əsla! Özü lüm-lüm udur batində, əmma Zahirdə dediyi mənayə bir bax! Kimdi baxan peyğəmbərə, imamə, Bu dağılmış düşən deyil nizamə! Orucluqda şürbi-meyi-gülfamə, Mahi-məhərrəmdə zinayə bir bax! Səhra mərdümünü şəhr əhli görcək, Yalvarıb, yapışıb oturdur çömmək; Beş arşında sürüşdürür on çərək, Tacirə seyr eylə, sövdayə bir bax! Baqqal tərəziyə qoyar imanın, Əsəl qiymətinə satar ayranın, Qudurmuş it kimi tutar hər yanın, Deyən yoxdur Ali-Əbayə bir bax! Pinəçilər bafta taxar boynuna, İmperial tökər vərəq oynuna, Qovurmaçı saat qoyub qoynuna, İddiayi-əla, ədnayə bir bax! Həramilər kimi yol üstə yatar, Tamojnada növkər olub mal tutar, Dünbək çalar, şərab içər... atar, Feli-bəyzadeyi-tərsayə bir bax! Dolanır bazarı darğa, kvartal, Döyülür sifətlər, yolunur saqqal; Gecə get cibinə beş-on manat sal, Gündüz gəlib nırxi-bahayə bir bad! Həddən aşıb bu viladə şərarət, Hər kim hər iş görə-puluna minnət. Mu qədəri yoxdur ədlü ədalət, Və lakin şöhrəti-biycayə bir bax! Böyüklərin işi deyil deməli, Dənidən betərdir feli, əməli; Beylə görməmişdik mundan əzəli, İndi karü bari-rüsvayə bir bax! Xanzadələr şişə taxır rəyəti, Özlərinin deyil qızı, övrəti; Orda….. , harda düşsə fürsəti, Kiçiyi seyr eylə, ağayə bir bax! Palajenya nəqli ta olub möhkəm, Gərək bəy azalda zülmün dəmadəm; Dəxi də artırır bu əhli-sitəm …………………….. zurnayə bir bax! Piranəsərlikdə mən oldum rüsva, Düzəlmədi işlər,cana yetdim ta; Gör nə oyun tutdu, əzizim Mirza, Zakirə, təqdiri-qəzayə bir bax!

## HƏYASIZ DƏRVİŞLƏR HAQQINDA

Əyyami-sabiqdə bir dərvişi-pir, Götürüb təbərzin, kəşkül, şahnəfir. Şeydullah əzmilə düşüb dərbədər, Gəzərkən, bir evdə pakizə düxtər Gördü ki, əyləşib vahidü yekta, Mükəddərü məyus, ğəmə mübtəla. Təbərzinin döyüb yerə, dedi: "dur! Məddahi-Əlinin

payını gətür!" Biçarə çiyninə qoyub başını, Abi-niysan kimi tökdü yaşını. Tərəhhümə gəlib dedi qələndər, "Yox isə siminiz, zəriniz əyər, Qənaət eylərəm düyüdən, yağdan, Nə var isə əsirgəmə qonağdan!" Qız dedi: "ey mövla, qəsəm xudayə, Nə düyüyə güman gəlir, nə yağə". Hər iki mətləbdən əl çəkib talib, Düyü, yağ sarıdan əngi boşalıb, Dedi: "onlar yoxdu, barı un olsun, Ver, tökək torbanın başına dolsun". Ərz eylədi düxtər: "bəhəqqi-xalıq, Un tapılmaz bu xanədə urvalıq". Labüd qalıb dərviş dedi: "bir çörək Bari gətir, yeyib, himmət var deyək". Dedi: "iki gündür naharsızam mən, İnanmırsan əgər o təknə, o sən". Xəbər aldı: "anan gedib nə yanə?". Dedi: "yas yeri var, varıbdı anə". Dedi: "təəccübəm əvamünnasə, Aləm gərək gələ bu evə yasə; Qonum, qonşu yeksər verib baş-başa, Gecə, gündüz sizin üçün ağlaşa. Nə yağı var, nə düyüsü, nə unu, Kim görüb aləmdə habelə günü?! Bilməzəm nə üçün o qəhbə, biar, Gedib biganələr evində ağlar. Ölüm yekdir belə zindəganlıqdan, Qaçmaq olmaz məşiyyəti-xalıqdan" Təkəllümə gəlib düxtəri-aqil, Dedi: "ey sinni pir, əməli cahil! Qapı-qapı töküb abi-ruyunu, İfratə yetirib göftüguyunu, Gahi dəm urarsan şahi-nəfirə, Eylərsən aləmin əhvalın tirə. Qaraçılar kimi it basa-basa, Dərdi-sər yetirib mərdə, ünasa, Verməyənə qaş-qabağın tökərsən, Kiminin üstünə çomaq çəkərsən. Qoyubsuz adınız hərçəndi dərviş, Dərviş ona derlər ola nikəndiş. Qənaət eyləyə bir əlcə nanə, Göz tikə qisməti-ruzirəsənə. Nə ki, düşə dər-dər yasavullar tək, Kimidən un ala, kimidən əppək, Elə nanü nəmək dursun göznüzə, Biarsınız, yığılmazsız öznüzə. Həram olmasaydı dəryuzə əgər, Mübah buyursaydı əshabə sərvər, Bəs nə üçün Səlman, Bazəri-bəğdad Dəymədi ağzına bəğeyri-üç zad; Nani-xüşki-cövin, sirkəvü piyaz. Çox yetirdi xaliq, onlar yedi az. Onunçun buyurub cənabi-Əli Sinfi-qələndəri hərcayi, dəli. Oruc tutmaz, namaz qılmaz, üz yumaz, Qapıdan cantayı dolmamış durmaz. Bu hal ilə qəhbə dersən anamı, Tapılmazsız evdə bayram axşamı. Özgə ümmidinə qalır zəniniz, Övrətiniz bilməz təşxisü təmyiz. Yava iş dalınca daim gedərsiz, Demək olar sizə kim, bipədərsiz. Ol kəsin ki, xəmirəsi pak ola Mümkün deyil gedə bu tövr yola" Əvvəl deyən bilsə sonki nə deyir, Dodağın tərpətməz, it ... yeyir. Dərvişi bağladı, həqqilə düxtər, Biçizlik yamandır, amma dərbədər Düşüb gəzmək ondan daha yamandır, Həmi dinə, həmi cana ziyandır. Bəndeyi-xudada gərək qənaət, Küfr nemətlərin zatına lənət!

## HƏCV

Nuşirəvanu hatəmü Qaiuni dəhrdə, Hərçənd qoydu nami-niku ta dəmi-əbəd.
Ali-Xəlilə cudü səxadə nə nisbəti, Əfsus, yoxdu kimsədə təşxisi-nikü bəd. Ol biri bağladı dəri-zülmü itabü qəhr, Bunlar yetirdi xəlqə "inayət" füzun zi həd,
Pişü pəsin ünasü zükurə qılıbdı vəqf, Qalxar, çökər cəmii-xəlayiq rəsəd-rəsəd.
El və elatdə buların xani-vəslinə Kimdir batırmayan səri-əngüşt bir əhəd?!
Daimtələbdi xah zimistanü xah yaz, Mərdü zənində yox buların çəmxəmi-ləgəd.
Həmsayədir biri bizə, zinhar görməyib Ömründə hiç failinin köksü dəsti-rədd.
Gəlməz şümarə kim, yazım əhvalını təmam, Öz başının tükü sanıdır fisqinə ədəd.

Mən böylə zati sərzənişi-ammə nə eyləyim, Məcmui-qəhbədir dişisi, erkəgi ləvənd. Fərxəndə bəxti var, kimin . . . . səxti var. Ol muş odur ki, nisfi-Qarabağ mö'təməd. Yaran, nə növi silsilədir hiç gözləməz, Namusü nəng, ismü rəhü rəsm əbavü cəd. Yeksər ləimü müşrikü ədnapərəstü dun, Yeksər səfihü naqisü divanəvü həpənd. Cümlə fəqiri-zalimü həm zalimi-fəqir, Cümlə xürusi-dəstidilər makiyanpəsənd. Çöldə, bayırda rubəhi-aciz kimi zəbun, Evdə, eşikdə hər biri bir şirü divü dəd. Çoxlar demişdi həcv, dəxi mən də baxmayıb Yazdım bu babdə neçə əfradi-guşzəd. Qılsın nəsibi-gürgi-əcəl kusfəndvar Ha böylə nəsli-bədəməli qadiri-səməd. Rüsvayi-aləm etdi bizi, Zakira, görüm Olsun təmami tezlik ilə sakini-ləhəd.

## MİRZƏ FƏTƏLİYƏ

Piranəsərlikdə çərxi-kəcrəftar Eylədi vətəndən dərbədər məni, Neyləmişəm, bilməm, dövri-zalimə,. İncidir düşəndə bu qədər məni. Qarabağ mülkündə mən bəxti siyah Bir ağ gün görmədim, allaha pənah. Saldı bəlalərə bicürmü günah Bir neçə müfsidü töxmi-xər məni. Mən bir piri-tənha, zülm bihesab, Müşküldür gətirmək bu möhnətə tab.. Yaman deyə-deyə eylədi xərab Hamıdan ziyadə üç nəfər məni. Biri fasiq, facir, hədsiz zinakar, Biri əyri-üyrü, xeyli nahəmvar, Biri danışanda baş-ayaq atar, Bir neçə it tutdu bixəbər məni. Adəm idim, əbəs yerə zay oldum, Vilayət içində rusivay oldum, Oğrulara, quldurlara tay oldum, Sanırdı xəlayiq peyəmbər məni. Devlətlidən dövlət, kordan məzərrət, Harda bihəya var zatına lənət! Süxənçin sözilə etdi aqibət Pəsərimdən cüda, bipədər məni. Dövləti-alidə ağarıb saqqal, Bir xilafım yoxdur, bu mən, o jurnal, Bir zaman gördüm ki, yazıbdı filhal, Qüttaüt-təriqə bərabər məni. Yetmişində zurna çalmaq eyrənən Gərək axirətdə çala, ... verən. Az qalıb həştadı tamam edim mən, Sən indi yazırsan əhli-şər məni. Yetmək olmaz hərcayinin sirrinə, Yalanı yeridir gərçək yerinə; Lənət oxur…………..pirinə Diyari-ğürbətdə kim görər məni. Kim ki, vilayətdə simü zəri var, Yüz adam öldürə, həbsdən çıxar; Yegənsiz danışmaq nə yanə çatar, Bihörmət eylədi simü zər məni. Dərdbilməzə dərdi-dili açınca, Ruzigarın cəfasından qaçınca, Namərd körpüsündən rahət keçincə, Razıyam apara o sellər məni. Kişi yoxdu, baxma çula-çuxaya, Adam gərək dağa-daşa toxuya; "Getmə, getmə"-deyib, qoydu yuxuya, Axırda itirdi Yekəpər məni. Dalınca deyiləm bir şüğlü karın, Bilmənəm dövrünü leylü nəharın; Həvəsi-vüsalın, zövqi-didarın Qoymaz yuxu yatam ta səhər məni. Rahi-müsibətdə keçmişəm candan, Müxənnəsdir qorxan bir qaşıq qandan; Ehtiyatım yoxdur paşadan, xandan, Analar doğubdur şiri-nər məni. Olmuşam Bakıda sakin, fərağət, Zövqi-təmaşası misali-cənnət. Ziyadə dərdi-sər dəxi nə hacət, Fəramuş eyləmə, müxtəsər, məni.